www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1-2 oktyabr 2016-cı il Şənbə № 216 (6537) Qiymәti 60 qәpik

**Xəbər**

**"Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC Kənd Təsərrüfatı Nazirliyindən alındı**

yazısı səh.2-də

**Gündəm**

## Azərbaycan Avropa Parlamenti ilə əməkdaşlığı bərpa edir



Milli Məclis mühüm yeni qanunlar qəbul etdi; Prezidentin fəaliyyətini təmin edən orqanların fəaliyyəti ilə bağlı dövlət qulluğunda yeni vəzifələr yaradılır...

yazısı səh.6-da

*Şahin Cəfərli:*

## "ABŞ istəməyincə, Dağlıq Qarabağ problemi həll olunmayacaq"

yazısı səh.8-də

*Hərbi ekspert:*

## "İrəvanı vura bilən silahlara malikik"

yazısı səh.3-də

## ABŞ İlqar Məmmədovu niyə türmədən çıxara bilmir...

yazısı səh.10-da

## Deputat ƏDV ədalətsizliyinə qarşı çıxdı

yazısı səh.4-də

## İsrail-Fələstin münasibətlərində tarixi olay - Mahmud Abbasın Peresin dəfnində iştirakı nəyə işarədir?

yazısı səh.11-də

## "Büdcəyə neftdən daha çox, manatın kursu təsir edəcək"

yazısı səh.7-də

## 10 minlərlə hektar torpağı zəbt edən məmurların siyahısı hazırlanır

yazısı səh.12-də

## Payız leysanlarla başladı - bəs qış necə keçəcək?

yazısı səh.13-də

## Bakıda məktəbdə qadınlar əlbəyaxa oldu

yazısı səh.12-də

## Taksi sürücülərinə yeni tələb - fərqlənmə nişanı...

yazısı səh.13-də

## Payızda solan sülh ümidləri, artan müharibə riskləri

# QARABAĞ MƏSƏLƏSİ ƏTRAFINDA TƏHLÜKƏLİ "U DÖNÜŞÜ" - KRİTİK GƏLİŞMƏ

ABŞ münaqişənin həllinə görə məsuliyyəti Azərbaycan və Ermənistan rəhbərlərinin üstünə atdı - səbəb; Rusiyanın da ləngiyən təşəbbüskarlığı və yaxasını kənara çəkməsi geridönməz proseslərə gətirə bilər...




yazısı səh.9-da

## Referendumdakı saxtakarlıq videolarına görə Milli Şura ittiham edildi

Siyavuş Novruzov referendum günü qutulara topa bülleten atılmasını müxalifətin oyunu adlandırdı; "Bunları Milli Şura edib, qutulara adi kağızlar atılıb, videolarda görünən isə seçki məntəqələri deyil"

yazısı səh.4-də



## Gürcüstan əsilli ziyalılardan Azər Süleymanova dəstək

yazısı səh.5-də



*Əflatun Amaşov:*

## "İnternet mediası da dövlət vəsaitindən bəhrələnməlidir"

yazısı səh.4-də



## Deputatdan siyasi və iqtisadi islahatlar anonsu

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 216 (6537) 1 oktyabr 2016



# “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindən çıxarılıb

**“Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyəti Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindən çıxarılıb. APA-nın məlumatına görə, bu, Azərbaycan prezidenti İlham Əliyevin imzaladığı “Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 1944 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" sərəncamında əksini tapıb.**

Azərbaycan Respublikasının Prezidentinə Cəmiyyətin Nizamnaməsinin və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi səlahiyyəti verilib.

Prezident həmçinin “Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.

APA-nın məlumatına görə, “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC-nin fəaliyyətinin təşkili üçün Prezidentin ehtiyat fondundan 10 milyon manat ayrılıb.

Nazirlər Kabinetinə Azərbaycan prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlamaq, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlamaq və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırılıb.

Maliyyə Nazirliyinə isə müvafiq məbləğdə maliyyələşməni təmin etmək həvalə olunub.



# Şirvan Milli Parkının ərazisində top mərmiləri tapıldı

**Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) sentyabrın 30-da Füzuli və Salyan rayonlarında partlamamış hərbi sursatlar (PHS) aşkarlayıb. ANAMA-dan APA-ya verilən məlumata görə, Füzuli rayonunun Alıxanlı kəndi ərazisində əkin sahəsində 1 ədəd partlamamış tank əleyhinə mina (TM-57) aşkar edilərək götürülüb.**

Salyan rayonu ərazisindəki Şirvan Milli Parkının ərazisində isə 5 ədəd partlamamış hərbi sursat (4 ədəd 122 mm-lik top mərmisi (BR-462) və 1 ədəd 100 mm-lik top mərmisi (BR-412) aşkar edilib. Mərmilər ərazidən götürülüb.

Ümumilikdə agentlik tərəfindən 7 aprel - 30 sentyabr 2016-cı il tarixlərində Zərdab, Tərtər, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Goranboy, Tovuz, Qazax, Ağstafa, Samux, Göygöl, Şəmkir, Cəlilabad, Ucar, Astara rayonlarında, Mingəçevir, Sumqayıt, Gəncə, Lənkəran, Şirvan və Bakı şəhərlərində 646 ev və həyətyanı sahə, 3 hərbi hissə, 2 kənd qəbiristanlığı, 5 kənd orta məktəbi, 1 tibb məntəqəsi, 1 metal anbarı, 30 ferma, əkin sahələri, 1 çaxır zavodu, 1 qoruq ərazisi və 1 çınqıl karxanası ərazisinə baxış keçirilmiş, 3 513 ədəd partlamamış hərbi sursat, 15 ədəd piyada əleyhinə mina (PMN), 3 ədəd piyada əleyhinə mina (POMZ-2), 1 ədəd piyada əleyhinə mina (OZM-72) və 42 ədəd tank əleyhinə mina aşkar olunaraq zərərsizləşdirilib.

“Qaya Mətbuat Yayımı” MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# “Bank Standard”ın lisenziyası ləğv olundu

**“Bank Standard”ın lisenziyası ləğv olunub. APA xəbər verir ki, bunu Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri Rüfət Aslanlı deyib.**

Onun sözlərinə görə, bu barədə bu gün Palatanın fövqəladə iclasında qərar qəbul olunub.

Rüfət Aslanlı deyib ki, “Bank Standard” Kommersiya Bankında 260 mindən çox fiziki şəxsin hesabı olub.

Onun sözlərinə görə, müştərilərin bankda 520 mln. manatlıq əmanəti olub: “Bu əmanətlərin 460 milyon manatı qorunan əmanətlərdir. Qorunan əmanətlər heç bir təhlükə altında deyil”, - deyə R. Aslanlı qeyd edib.

Direktorlar Şurasının sədri bildirib ki, bankda yerləşdirilən əmanətlərin böyük hissəsi xarici valyutada olub: “Bu əmanətlərin 38 milyonu manatda, 260 milyonu isə digər xarici valyutalardadır”.



Rüfət Aslanlı

Rüfət Aslanlı bildirib ki, “Bank Standard”ın lisenziyasının ləğv olunması “Standard İnsurance” sığorta şirkətinin bağlanması demək deyil.

Onun sözlərinə görə, bankın bağlanması sığorta şirkətinin baxışlarına və bazar davranışına təsir edəcək.

## Bolqarıstan parlamenti ictimai yerdə niqabdan istifadəni yasaqladı

**Bolqarıstan parlamenti müsəlman xanımların ictimai yerlərdə niqabdan istifadəsini yasaqlayan qanun qəbul edib.**

Novator.az-ın məlumatına görə, qadağa Avropada baş verən terror hücumları fonunda ölkədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi arqumenti ilə izah olunur.

Qadağaya əməl etməyənləri 860 ABŞ dolları civarında cərimə gözləyir. Qanunu pozanlar sosial güzəştlərdən də məhrum ediləcəklər. Amma bəzi istisnalar da mövcuddur. Məsələn, səhhətində problem olan müsəlman xanımlara ictimai yerlərdə niqabda gəzməyə icazə veriləcək.

Qanun Bolqarıstan parlamentindəki “Vətənpərvər cəbhə” koalisiyasının təşəbbüsü ilə qəbul edilib.

Son vaxtlar Avropanın başqa ölkələrində - Fransa, Hollandiya və Belçikada da niqabla bağlı bəzi məhdudiyyətlər tətbiq edilib.

## Neft Fondunun Londondakı əmlakı ucuzlaşa bilər

**“Gələn ilin sonunadək Londonun mərkəzi hissəsində yerləşən ofislərin qiyməti 30% azala bilər”.**

“Bloomberg” agentliyi xəbər verir ki, bu barədə “Deutsche Bank”ın hesabatında deyilir.

Daşınmaz əmlakın ucuzlaşmasına Böyük Britaniyanın Avropa İttifaqından çıxması göstərilir.

Hesabatın müəllifi Saymon Uolles bildirib ki, qiymətlər hazırda da azalmaqdadır, lakin gələn il bu proses daha da sürətlənəcək: “Biz Londonun daşınmaz əmlak bazarına investisiya yatırmaq istəyən investorlara gələn ilin sonunadək gözləməyi tövsiyə edirik”.(APA)



## Dolların məzənnəsi 9 ayda necə dəyişdi...

Azərbaycan Mərkəzi Bankı (AMB) sentyabrın 3-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.

AMB-dən “APA-Economics”ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi sentyabrın 29-u ilə müqayisədə 0,25% azalaraq 1,6170 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, dünən dolların məzənnəsi 1,6211 manat olub.

2016-cı ilin 9 ayı ərzində Mərkəzi Bankın keçirdiyi valyuta hərraclarında 4 milyard 817,8 milyon ABŞ dolları həcmində vəsait satılıb. Bunun 3 milyard 882,4 milyon dolları Dövlət Neft Fondunun, 935,4 milyon dolları Mərkəzi Bankın payına düşür.

Azərbaycan manatı 2015-ci il fevralın 21-də devalvasiyaya uğrayıb, dolların kursu 78 qəpikdən 1 manat 5 qəpiyə qalxıb. Dekabrın 21-də Mərkəzi Bank manatı üzən məzənnə rejiminə keçirib və dolların məzənnəsi 1 manat 55 qəpik olub.

Bu il dolların ən aşağı qiyməti mayın 25-i və 26-da qeydə alınıb: 1 dollar 1,49 manata satılıb. ABŞ dollarının ən yüksək rəsmi qiyməti marta təsadüf edib. Həmin ayın 11-də dollara 1,6456 manat qiymət qoyulub. Sentyabrın 7-dən 9-dək dollar yenidən 1 manat 64 qəpik həddini keçərək 1,6403 manata təklif olunub.

Novator.az 9 ayda, hər ayın əvvəli və sonunda dolların məzənnəsinin necə dəyişdiyinə nəzər salıb:

5 yanvar - 1,5610 manat
28 yanvar - 1,6028
1 fevral - 1,5972
29 fevral - 1,5655
1 mart - 1,5687
31 mart - 1,5421
1 aprel - 1,5238
29 aprel - 1,5072
2 may - 1,5072
31 may - 1,4906
1 iyun - 1,4918
30 iyun - 1,5394
1 iyul - 1,5425
29 iyul - 1,5851
1 avqust - 1,5851
31 avqust - 1,6321
1 sentyabr - 1,6321
30 sentyabr - 1,6211.

## Abşeronda şagird məktəbdə intihara cəhd etdi

**Abşeron rayonunda şagird məktəbdə intihara cəhd edib. APA-nın məlumatına görə, hadisə Xırdalan şəhərindəki 2 saylı orta məktəbdə qeydə alınıb. Burada təhsil alan şagirdlərdən birinin binanın ikinci mərtəbəsindən özünü atdığı bildirilir.**

Abşeron Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, onlara məktəbin ikinci mərtəbəsindən şagirdlərdən birinin yıxılması barədə məlumat daxil olub. Araşdırma aparılır.

## “Fransa Azərbaycan və Ermənistan prezidentlərinin görüşünə ev sahibliyi edə bilər”

**“Fransa və Azərbaycan arasında yüksək səviyyəli görüşlər daimi əsasda keçirilir”.**

APA-nın xəbərinə görə, bunu Fransanın Azərbaycandakı səfiri Aurelio Buşez deyib.

Səfir “Fransa ilin sonuna kimi Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil edə bilərmi” sualına cavab olaraq qeyd edib ki, rəsmi Paris prezidentlərin görüşünün təşkili ilə bağlı öz mövqeyini bildirib: “Fransa prezidentlərin görüşünə ev sahibliyi edə bilər. Amma hazırda görüşün konkret tarixi məlum deyil”.

## Qubada döyülərək xəstəxanaya gətirilən xəstəni palatada bıçaqladılar

**Qubada şok olay baş verib. Bıçaqlanma ilə nəticələnən münaqişə Qubanın Mirzəqışlaq kəndində baş verib.**

“ARB TV” xəbər verir ki, 33 yaşlı kənd sakini Bəhruz Paşayevlə qonşusu 52 yaşlı Samirə Məmmədova arasında şəxsi zəmində münaqişə yaşanıb. Sonradan Samirə Məmmədovanın oğlanları da mübahisəyə qoşulub.

Bəhruz Paşayevin qardaşı «ARB Şimal»a bildirib ki, hadisə Bəhruz toy məclisindən qaydarkən baş verib: “Toydan sərxoş vəziyyətdə gəlib. Bunları anası çağırıb içəri. Oğlu gəlib, tutub bunu içəridə. Ana-bala birləşib, döyüblər bunu. ”Lapatka" ilə vurublar. Başını yarıblar. Baltayla vurublar".

Şahidlərin dediyinə görə, evdə münaqişə zamanı qaynar su ilə dolu qəfədan Bəhruz Paşayev və Samirə Məmmədovanın üstünə aşıb. Müxtəlif yanıq xəsarətləri ilə Quba RMX-nın cərahiyyə şöbəsinə yerləşdirilən şəxslərə müvafiq yardımlar göstərilib. Gecə saatlarında özünü zərərçəkən Bəhruz Paşayevin yaxını kimi təqdim edərək xəstəxanaya daxil olan Vidadi Məmmədov ona sarğı otağında 6 bıçaq zərbəsi vuraraq ağır bədən xəsarətləri yetirib. Yaralı üzərində 6 saat cərrahiyyə əməliyyatı aparıldıqdan sonra onu həyatda saxlamaq mümkün olub. Hazırda reanimasiya şöbəsində müalicə alan zərərçəkənin vəziyyəti ağırdır.

Hadisə nəticəsində müxtəlif yanıq xəsarətləri alan Samirə Məmmədovanın müalicəsi stasionar qaydada aparılır. Quba Rayon Polis Şöbəsinin baş müstəntiqi Mükərrəm Məmmədov “ARB Şimal”a açıqlamasında bildirib ki, bıçaqlanma hadisəsi ilə bağlı araşdırmalara başlanılıb.

# Deputatdan siyasi və iqtisadi islahatlar anonsu

## İdarəçilik sistemində və kadr siyasətində ciddi dəyişikliklər olacağı gözlənilir

**Hazırda mətbuatın əsas müzakirə mövzularından biri də referendumdan sonra keçiriləcək islahatlardır. Məlum olduğu kimi, referendum artıq geridə qalıb, MSK seçki nəticələrini təsdiqləməsə də, ilkin nəticələr bəllidir.**

Bəs görəsən, bundan sonra hansı sahələrdə nə kimi islahatlar keçiriləcək? Bu dəyişikliklərin nəticələrini vətəndaşlar nə zamandan hiss edəcəklər?

"Yeni Müsavat"ın sualını cavablandıran **Milli Məclisin deputatı Fəzail Ağamalı** bildirdi ki, referendumun nəticələri təsdiq olunub qüvvəyə mindikdən sonra islahatlar bütün istiqamətlərdə özünü göstərəcək: "Həm siyasi, həm iqtisadi, həm sosial, həm hüquqi, həm də idarəçilik sistemi ilə bağlı islahatlar həyata keçiriləcək. Bu dəyişikliklər Azərbaycan dövlətinin güclənməsinə, ölkəmizdə idarəçilik sisteminin təkmilləşməsinə, iqtisadiyyatın güclənməsinə, sahibkarların inkişafına kömək edəcək islahatlar olacaq. Mərkəzi Seçki Komissiyası seçkinin nəticələrini hələ elan etməyib. Azərbaycan qanunvericiliyinə görə, MSK referendumun nəticələrini 25 gün ərzində elan etdikdən sonra artıq o qüvvəyə minəcək. O qüvvəyə minəndən sonra biz qısa zaman içərisində o islahatların nəticələrini görəcəyik".

**Fəzail Ağamalı bildirdi ki, ilk növbədə hakimiyyətin yuxarı eşelonunda islahatlar gözlənilir:** "Aşağıdan yuxarıya qədər bütün vəzifələrdə çevikliyin təmin olunması üçün dəyişikliklərin edilməsi gözlənilir. Paralelçilik aradan qaldırılacaq, təkrarçılığa son qoyulacaq. Təkrar qurumların ləğv olunması və ya birləşdirilməsi gözlənilir. Bir sözlə, idarəçilik sistemində də biz ciddi dəyişikliklər müşahidə edəcəyik".



**Deputat qeyd etdi ki, referendum aktında ən əsas maddələrdən biri də sahibkarlıqla bağlıdır:** "İlk növbədə dövlət və xalqın təhlükəsizliyi məsələsi istisna olmaqla, bütün hallarda sahibkarlığın fəaliyyətinə müdaxilə məhdudlaşdırılacaq. Bu da sahibkarlar üçün geniş imkanlar yaradacaq. Mən Milli Məclisin plenar iclasında çıxışımda da dedim ki, bununla bağlı ayrı-ayrı qanunvericilik aktlarında dəyişiklik aparılmalıdır. Cinayət Məcəlləsinə də xüsusi maddə salınmalıdır ki, istənilən məmur, dövlət qurumu sahibkarlığın fəaliyyətinə yersiz müdaxilə edərsə, təkcə inzibati qaydada deyil, eyni zamanda cinayət məsuliyyəti də daşıyır. Digər tərəfdən, mülkiyyət məsələlərində sosial ədalət prinsipi özünə xüsusi yer alacaq. İstifadəyə yararlı olan, lakin ayrı-ayrı şəxslər tərəfindən özəlləşdirilən yüz hektarlarla torpaq sahələrinin istifadəsiz qalması bu gün Azərbaycan hökumətinin apardığı iqtisadi siyasətin mahiyyətinə ziddir. Çünki bu gün Azərbaycanda kənd təsərrüfatının, qeyri-neft sektorunun inkişafı prioritetdir. Həmin torpaqların istifadə edilməsi mütləqdir. İstifadə olunmasa, qanuna edilmiş dəyişikliyə əsasən həmin insanların əlindən alınacaq və torpağı istifadə edənlərin ixtiyarına veriləcək. Bu da iqtisadi inkişafımızda xüsusi əhəmiyyət kəsb edir".

**Referendumdan sonrakı struktur islahatları çərçivəsində baş nazirin müavinləri Abid Şərifov və Elçin Əfəndiyevin vəzifədən gedəcəyi ilə bağlı səslənən iddialara gəlincə, Fəzail Ağamalı qeyd etdi ki, idarəçiliklə bağlı dəyişikliklərin ayrı-ayrı məmurların və fərdlərin üzərində müzakirə edilməsini doğru hesab etmir:** "Ölkə prezidentinin səlahiyyətində olan məsələdir. Cənab prezidentin konstitusiya aktının qəbulundan sonra idarəçilik sistemində hansı dəyişikliklərin aparılacağı, kimləri vəzifədən çıxaracağı və ya hansı vəzifələrin ixtisar olunacağı onun qərarlarından asılı olacaq. Adlarını çəkdiyiniz şəxslər indiyə qədər Azərbaycan dövlətçiliyində müsbət rol oynayıblar, imkanları daxilində, səlahiyyətləri çərçivəsində Azərbaycan dövlətinə töhfə veriblər. Bundan sonra idarəçilikdə hansı dəyişikliklərin olacağı ehtimallar üzərində qurulan söhbət deyil".

❑ Nərgiz LİFTİYEVA

# V Bakı Beynəlxalq Humanitar Forumunun Bəyannaməsi qəbul olundu

**Bakı Beynəlxalq Humanitar Forumunun Bəyannaməsi qəbul olunub.**

APA-nın məlumatına görə, dünyanın müxtəlif ölkələrindən Bakıya toplaşan siyasət, elm və mədəniyyət xadimləri, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti və kütləvi informasiya vasitələrinin nümayəndələri V Bakı Beynəlxalq Humanitar Forumunun işinin son dərəcə səmərəli olduğunu, beynəlxalq humanitar əməkdaşlığın genişləndirilməsinə və bundan sonrakı inkişafına layiqli töhfə verdiyini bəyan ediblər.

Forum iştirakçıları yalnız insan kapitalına yatırılan sərmayələrin müasir dövrün çağırışlarına effektli cavabın, eləcə də həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş idarəçilik, istehsal, elm və informasiya kommunikasiya texnologiyalarının təkmilləşdirilməsinin əsas şərt olduğunu hesab etdiklərini, Azərbaycanın təşəbbüsü ilə yaradılan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin multikulturalizmin nəzəriyyəsi və təcrübəsinin inkişafına mühüm töhfə verdiyini qeyd ediblər: "Azərbaycanda bütövlükdə insan kapitalının qorunması və artırılması işində yüksək nəticələr əldə olunduğunu ifadə edirik. İnsan kapitalının həmçinin fənlərarası ən yeni bilik və bacarıqların inteqrasiyası, fasiləsiz təhsil proqramları və eləcə də bu sahədə əməkdaşlığın genişləndirilməsi yolu ilə davamlı inkişafın vacib humanitar tərkib hissəsi olduğunu etiraf edirik.

Sivilizasiyalararası, mədəniyyətlərarası və konfessiyalararası səmərəli dialoqun təşkili məqsədlərinə nail olunmasında informasiya texnologiyalarının və kütləvi informasiya vasitələrinin artan rolunu vurğulayırıq. Ekoloji sivilizasiya haqqında təsəvvürlərin formalaşdırılması zərurətinə, istehlak və istehsalın səmərəli modellərinin tətbiqini dəstəkləyən müxtəlif hərəkatların təşviqinə, təbii sərvətlərə qayğıkeş münasibət və iqlim dəyişiklikləri ilə bağlı lazımi tədbirlər görülməsinin vacibliyinə xüsusi diqqət yetiririk. Elm ictimaiyyətinin müxtəlif nümayəndələri, o cümlədən təbiət və humanitar elm sahələrinə mənsub alimlər arasında hərtərəfli fikir mübadiləsinin zəruriliyini dərk edirik və XXI əsrin çağırışlarına uyğun adekvat cavabların təmin olunmasında onların müasir və ənənəvi texnologiyaların konvergensiyası istiqamətindəki səylərini yüksək qiymətləndiririk.

Humanitar əməkdaşlıq sahəsində ixtisaslaşan müxtəlif beynəlxalq və milli qurumları tolerantlığın və qarşılıqlı hörmət mühitinin formalaşmasına, müasir qlobal və lokal çağırışların həllinə istiqamətlənmiş forum, konfrans və dəyirmi masaları mütəmadi surətdə keçirməyə çağırırıq. Bu kimi forumların iki ildən bir keçirilməsinin zəruriliyinə əminliyimizi ifadə edirik və Azərbaycan prezidentinə, hökumətinə, Heydər Əliyev Fonduna, V Bakı Beynəlxalq Humanitar Forumunun bütün iştirakçılarına səmərəli fikir mübadiləsi və problemlərə ümumi baxışın formalaşması üçün yaradılan şəraitə görə dərin təşəkkürümüzü bildiririk. Bu bəyannamənin qəbul edilməsini və onun humanitar sahədə əməkdaşlığın gücləndirilməsi məqsədilə istifadə olunmasını vacib sayırıq".

# "İrəvanı vura bilən silahlara malikik"

## Azərbaycanın müdafiə-sənayesi Ermənistanın "İsgəndər" sevincini əlindən alır

**Sentyabrın 21-də İrəvanda keçirilən hərbi paradda bir diviziyon (4 kompleks) "İsgəndər" raketi nümayiş etdirilməsindən sonra Azərbaycanın da "İsgəndər" raketləri və bundan daha güclü silahlarının olub-olmaması məsələsi ətrafında müzakirələr gedir.**



**Hərbi ekspert Üzeyir Cəfərov** bu barədə açıqlamasında bildirdi ki, bu mövzularla bağlı bəzən yazılarda, fikirlərdə həddən artıq şişirtmələrə və qeyri-peşəkarlığa yol verildiyini görməmək mümkün deyil. Azərbaycanın silahlı qüvvələrində "İsgəndər" raketləri olmasa da müasirliyinə, gücünə görə ondan geri qalmayan silahlar var. Elə məsələlər var ki, onun barəsində ümumi danışmaq, konkretləşdirməmək hərbi sirr baxımından, dövlətin maraqları nöqteyi-nəzərindən vacibdir: "Dövlətin rəsmi açıqladığı nədirsə, yalnız onun barəsində geniş, konkretləşdirilmiş formada şərhlər vermək, yazılar yazmaq lazımdır. Silah, hərbi texnika imkanlarımız barədə kim ağlına nə gəldi danışmamalıdır.

"İsgəndər" raketləri heç də Ermənistanın silah-sursat, texnika sarıdan Azərbaycandan önə keçməsi demək deyil. Bundan həyəcanlanıb diletant açıqlamalar verməyə ehtiyac yoxdur.

Azərbaycanın silahlı qüvvələrinin silah arsenalı həcminə, keyfiyyətinə və müasirliyinə görə Ermənistanın silah arsenalından dəfələrlə üstündür, öndədir. Bizdə ən müasir raket sistemləri, hava hücumundan müdafiə sistemləri var ki, Ermənistan tərəfindən atılan istənilən raketi sıradan çıxarmağa qadirdir. Azərbaycan o silahların, texnikanın cüzi bir hissəsini indiyə qədər hərbi paradda nümayiş etdirib. Hamısını nümayiş etdirməyə ehtiyac yoxdur. Azərbaycan Silahlı Qüvvələrinin arsenalında olan raket-artileriya qurğuları istifadə olunsa, Ermənistanda daşı-daş üstə qoymaz. Azərbaycan ordusunun malik olduğu ən son silah və texnika işə salınarsa, Ermənistanın itkiləri 4, hətta 5 dəfə çox olacaq. Bizim təkcə Naxçıvanda əlahiddə qoşun növü bu gün Ermənistanın bütün ordusundan qat-qat güclü silahlanıb. Ordumuzun arsenalında olan silahlar Ermənistanı bir neçə dəqiqədə yer üzündən silməyə qadirdir. Ona görə də heç bir narahatlığa əsas yoxdur".

Hərbi ekspert onu da dedi ki, son rəsmi açıqlamalara görə, Azərbaycanda Müdafiə Sənayesinin yeni bir sahəsi - raketqayırma sənayesi formalaşmaqdadır və bazası da artıq yaradılıb. Azərbaycan 280 kilometr məsafəyə uça bilən raketlərin istehsalını layihələndirib. Ümumiyyətlə, ilin sonuna qədər 125 adda yeni hərbi məmulatın hazırlığı və istehsalı nəzərdə tutulur ki, bu da ölkənin müdafiə sənayesini çox yüksək bir səviyyəyə çatdıracaq.

**Azərbaycanın Türkiyədən alacağı yarımballistik raketlər dağıdıcı gücünə görə heç də Rusiyanın Ermənistana verdiyi silahlardan geri qalmır:** "Rəsmi açıqlamaya görə, Azərbaycan Belarusdan 300 kilometrlik məsafəni hədəf alan yeni raket qurğusu alır. Bugünlərdə Bakıda keçirilən "ADEX 2016" II Azərbaycan Beynəlxalq Müdafiə sərgisində iştirak edən Belarusun "Volatavto" şirkəti bu barədə açıqlama verib. Bildirilib ki, 2016-cı ildə istehsal edilən yeni raket qurğusu ilin sonunadək satışa çıxarılacaq. Azərbaycan Müdafiə Nazirliyi raket qurğusunun alınması ilə bağlı şirkətlə danışıqlar aparıb və razılıq əldə edib.

"ADEX 2016" II Azərbaycan Beynəlxalq Müdafiə sərgisində müdafiə sənayesi naziri deyib ki, 280 km məsafədə ballistik raketlərin texnologiyasının Azərbaycana gətirilməsi ilə bağlı dünyanın bir neçə aparıcı şirkəti ilə danışıqlar gedir.

Bakıdakı sərgidə diqqətçəkən hərbi sursatlardan biri də "QFAB-100SAB" qəlpəli-fuqaslı süzən aviasiya bombası olub. Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələri tərəfindən istehsal olunan bu "qanadlı" bombalar düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək üçün nəzərdə tutulub. Təyyarədən atılan bomba 100 km-ə qədər uça bilir. Yəni hədəf müəyyən edildiyi halda hərbi təyyarə bombanı təyyarə üçün təhlükəsiz ərazidə havaya buraxır və sonra bomba özü təyin edilmiş hədəfə doğru uçaraq onu məhv edir. Göründüyü kimi, Azərbaycan düşmənin "İsgəndər" təhdidlərinin qarşılığında özünün arsenalında olanların cüzi hissəsini nümayiş etdirir.

Söz yox ki, ölkəmizin silah arsenalında Türkiyə, İsrail, Pakistan istehsalı olan daha dəhşət saçan silah-sursatlar var. Son məlumata görə, Türkiyənin "Roketsan" şirkəti aldığı sifariş əsasında "Qasırğa T-300" reaktiv sistemlərinin Azərbaycana verilməsini başa çatdırıb. Məlumata görə, həm 2015, həm də 2016-cı illərdə Azərbaycana "Qasırğa T-300" reaktiv sistemləri çatdırılıb. Azərbaycana nə qədər "Qasırğa T-300" reaktiv sisteminin satıldığı açıqlanmır.

❑ Etibar SEYİDAĞA

# Parlamentdə medianın inkişafı ilə bağlı mühüm təkliflər verildi

## Əflatun Amaşov: "İnternet mediası da dövlət vəsaitindən bu və ya digər formada bəhrələnməlidir"


Əflatun Amaşov

**Milli Məclisin 2016-cı il payız sessiyasının qanunvericilik işləri planı haqqında danışan deputat, Mətbuat Şurasının sədri Əflatun Amaşov ölkə prezidentinə media mənsublarının təşəkkürünü çatdırıb. Ötən sessiyada mətbuata tətbiq olunan əlavə dəyər vergisi (ƏDV) ilə bağlı məsələ qaldırdığını xatırladan Ə.Amaşov deyib ki, prezident İlham Əliyev yayda mətbuata 1 milyon manat yardım ayırmaqla ciddi addım atıb.**

"Beləliklə, ƏDV-nin tətbiqi ilə yaranmış çətin vəziyyət aradan qalxdı"-deyə, Ə.Amaşov bildirib. Mətbuatın həlli vacib olan digər problemlərinə də diqqət çəkən MŞ sədri diffamasiya haqqında qanunun qəbul edilməsini vacib saydı. Eyni zamanda o, bu gün informasiya məkanında mühüm yeri olan internet mediasının maliyyələşməsini də zəruri saydı. Çap mediasına dəstək verən qurumun fəaliyyət göstərdiyini xatırladan deputat "internet mediası da dövlət vəsaitindən bu və ya digər formada bəhrələnməlidir"-söyləyib. Ə.Amaşov reklam bazarından da bəhs edib: "Medianın iqtisadi durumu reklamdan asılıdır. Doğrudur, dövlət dəstəyi var, qəzetlər bu dəstək sayəsində ayaqda qalırlar. Ancaq bu dəstək daimi ola bilməz, mətbuat özü müstəqil şəkildə özünü maliyyələşdirməlidir. Bunun üçünsə reklam bazarının inkişafına ciddi ehtiyac var".

**Deputat Məlahət İbrahimqızı da mətbuat mövzusunda danışıb. Amma fərqli müstəvidə. Deyib ki, internet televiziyaları ilə bağlı qanun yoxdur:** "Ona görə də Meydan TV və Sancaq TV-nin dövlət başçısına qarşı yazdıqlarını adam utandığından oxuya bilmir. ANS-lə bağlı dərhal qərar qəbul edə bildilər. Amma internet üzərindən yayımlanan televiziyalarla bağlı qanun olmadığı üçün bu sahədə özbaşınalıq var. Dünyanın heç bir yerində dövlət başçısını bu formada təhqir etmirlər".

**İclasa sədrlik edən 1-ci vitse-spiker Ziyafət Əsgərov M.İbrahimqızının sözlərinə reaksiyasında deyib ki, yəqin Əflatun müəllimin təmsil olunduğu komitədə bununla bağlı müəyyən addımlar atılacaq:** "Ancaq mən sizin bir fikrinizlə razı deyiləm. Dediniz ki, yəqin Əflatun müəllim bu barədə fikirlərini demək istəyib, amma kifayət qədər vaxt olmadığından bu, mümkün olmayıb. Əflatun müəllimə kifayət qədər imkan verildi. Sadəcə olaraq ya bunu demədi, yaxud demək istəmədi, bilmirəm".

❑ E.PAŞASOY

# Deputat ƏDV ədalətsizliyinə qarşı çıxdı

## Vahid Əhmədov: "Niyə avtomobilə də, mebelə də, xaricdən gətirilən qida məhsullarına da 18 faizlik ƏDV tətbiq edilir?"


Vahid Əhmədov

**"Biz bir neçə dəfə diferensiallaşmış Əlavə Dəyər Vergisinin (ƏDV) tətbiq olunması ilə alaqədar Vergilər Nazirliyinə müraciət etmişik, ancaq hələ ki nəticəsi yoxdur. Amma ölkəyə idxal olunan gündəlik tələbat mallarına ƏDV azaldılmalıdır".**

Bu fikirləri deputat Vahid Əhmədov Milli Məclisin iclasında Vergilər Məcəlləsinə əlavə və dəyişikliklərin müzakirəsi zamanı deyib.

Millət vəkili bu sahədəki ədalətsizliyə diqqət çəkib: "Niyə Azərbaycana gətirilən malların hamısından ucdantutma 18 faizlik ƏDV tələb olunur? Niyə avtomobilə də, mebelə də, xaricdən gətirilən qida məhsullarına da 18 faiz ƏDV tətbiq edilir? Biz bu barədə əvvəllər də məsələ qaldırmışıq, Vergilər Nazirliyi əsasən bizimlə razılaşıb, amma bununla əlaqədar Milli Məclisə hər hansı bir sənəd daxil olmayıb. Bəzi mallar var ki, insanlar onlardan 15-20 ildə bir dəfə istifadə edirlər, onlara lap 35-40 faiz ƏDV tətbiq etmək olar. Ancaq gündəlik tələbat malları var ki, onlara çox aşağı, 3-5 faiz ƏDV tətbiq etmək olar".

Spiker Oqtay Əsədov isə V.Əhmədovun dediklərinə reaksiyası verərək "Çox ağlabatan bir təklifdir, bunu işləmək olar" - deyə bildirib.

❑ E.PAŞASOY

# Referendumdakı saxtakarlıq videolarına görə Milli Şura ittiham edildi

## Siyavuş Novruzov referendum günü qutulara topa bülleten atılmasını müxalifətin oyunu adlandırdı; "Bunları Milli Şura edib, qutulara adi kağızlar atılıb, videolarda görünən isə seçki məntəqələri deyil"

**Sentyabrın 26-da Azərbaycanda keçirilən referendum hələ də müzakirə edilir. Müzakirə istiqamətlərindən biri də səsvermə günü seçki qutularına topa bülletenlərin atılmasıdır. Həm referendum günü, həm də sonrakı günlərdə sosial şəbəkələrdə və bəzi saytlarda bu halların əks olunduğu videolar yayıldı.**

Hakimiyyət seçkinin şəffaf və qüsursuz keçirildiyini desə də bu görüntülər prosesi və iqtidarın rəyini ciddi şəkildə zədələyir. Bəs görəsən, qutuya topa bülleten atan şəxslər məsuliyyətə cəlb olunaraq, cəzalandırılacaqmı? Həmin dairələrin seçki nəticələri ləğv oluna bilərmi?

Bu suallara cavab almaq üçün Mərkəzi Seçki Komissiyasının (MSK) mətbuat xidməti ilə dəfələrlə əlaqə saxlamaq istəsək də, cəhdlərimiz boşa çıxdı. Daxili İşlər Nazirliyindən isə bildirildi ki, sualımızla bağlı araşdırma aparılıb tezliklə cavab veriləcək.


Siyavuş Novruzov

**Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov isə məsələ ilə bağlı "Yeni Müsavat"a ilginc açıqlamalar verib. Deputatın sözlərinə görə, səsvermə günü baş verənlər əslində "səhnələşdirilmiş məntəqə"də olub, videolarda görünən topa bülletenlər isə əslində adi kağız vərəqələri olub:** "Ümumxalq səsverməsi yüksək şəkildə keçdi. Bütün vətəndaşlar seçkiyə gələrək hər bir maddəyə səs verdilər. Mərkəzi Seçki Komissiyası (MSK) da ilkin açıqlamasını verdi. Yeni Azərbaycan Partiyasının da seçki məntəqələrində müşahidəçi kimi üzvləri var idi. Deməli olar ki, hər məntəqədə bir nümayəndəmizi təyin etmişdik. Onların da məlumatlarına görə, seçki fəallığı çox yüksək səviyyədə olub və çox şəffaf şəkildə bu referendum keçirildi, başa çatdı.

Qaldı ki nöqsanlara, biz araşdırdıq və bəlli oldu ki, videogörüntülərdə olan insanların heç birində bülleten olmayıb. Onların hamısı qurma, Avropaya, o cümlədən digər başqa yerlərə referendum haqqında mənfi informasiya vermək üçün Milli Şuranın oyunları olub. Həmin şəxslərin əlində adi kağız olub, onu büküb qutuya atıblar. Digərləri ilə bağlı isə onlar özləri məntəqə yaradıb bu formatda, guya saxtakarlıq olub və bunu çəkib sonra sosial şəbəkələrdə yerləşdiriblər. Həmin şəxslər də Milli Şuranın təlimatlandırdığı adamlar olublar və bu məsələlər də araşdırılıb".

**S.Novruzov deyib ki, videolarda göstərilənlər əslində seçki məntəqələri olmayıb:** "Bütün məntəqələrin hamısına öz nümayəndələrimizi göndərmişdik. O format da, quruluş da tamam ifşadır. Bir neçə şəxsə adi kağız veriblər, guya ki, topa bülletendir. Hər bir şəxsə bir bülleten verilir və onu verən də, qutuya atan da məsuliyyət daşıyır".

**Bir sözlə, YAP-çı deputat iddia edir ki, yayılmış videolardakı görüntülər Milli Şuranın əvvəldən qurașdırdığı oyundu və MSK-nın təşkil etdiyi seçki prosesinə heç bir dəxli yoxdu. S.Novruzov bu cür əməllərin qanunvericilikdə konkret cəzalarının olduğunu da xatırladıb:** "Bu məsələ ilə bağlı Seçki Məcəlləsində və Cinayət Məcəlləsində məsuliyyət nəzərdə tutulub".

**Milli Şura və AXCP rəhbərliyi "Yeni Müsavat" qəzetini boykot etdikləri üçün Siyavuş Novruzovun iddialarına rəy ala bilmədik.**

❑ Xalidə GƏRAY



# Rusiyadan gələn pullar kəskin azalıb

## 2014-cü ildə vətənə 1,3 milyard dollar göndərən azərbaycanlılar 2016-cı ildə 203 milyon yollaya biliblər

**Rusiya Mərkəzi Bankı bank köçürmələri yolu ilə bu ilin birinci yarısında MDB respublikalarına pul köçürmələrinin həcmini açıqlayıb.**

Virtualaz.org xəbər verir ki, Mərkəzi Bankın məlumatına əsasən Rusiyada əmək fəaliyyəti ilə məşğul olan azərbaycanlı miqrantlar ilin ikinci kvartalının yekunlarına əsasən vətənə cəmi 203 milyon dollar göndəriblər.

Bu göstərici üzrə özbək miqrantlar liderdir, onlar göstərilən müddət ərzində Özbəkistana 696 milyon dollar göndəriblər. Sonrakı yerdə Tacikistan (495 milyon dollar), Qırğızıstan (487 milyon dollar) gəlir.



| Страна СНГ | Общая сумма за год | Средняя сумма перевода |
|---|---|---|
| Узбекистан | $6,67 млрд. | $403 |
| Таджикистан | $4,17 млрд. | $275 |
| Украина | $3,42 млрд. | $523 |
| Киргизия | $2,11 млрд. | $205 |
| Армения | $1,71 млрд. | $262 |
| Азербайджан | $1,34 млрд. | $683 |
| Молдова | $1,28 млрд. | $451 |
| Беларусь | $0,4 млрд. | $472 |



Ermənistana isə Rusiyadan 179 milyon dollar daxil olub. Başqa sözlə, bütün MDB respublikalarına Rusiyadan göndərilən pullar kəskin azalıb. Müqayisə üçün qeyd edək ki, təkcə 2013-cü ildə özbək əmək miqrantları Özbəkistana 6.6 milyard dollar göndərmişdilər.

Rusiya Mərkəzi Bankının açıqladığı rəqəmlər bu ölkəyə qazanc dalınca gedənlərdən Azərbaycana daxil olan pulların dollar ekvivalentində ilbəil azaldığını göstərir. Belə ki, azərbaycanlı miqrantlar 2014-cü ildə vətənə 1.3 milyard dollara yaxın pul göndərmişdilər. 2015-ci ildə isə bu göstərici iki dəfə aşağı düşərək 650 milyon dollara yaxın olub. Bunun əsas səbəbi Rusiya rublunun dollar qarşısında kəskin dəyər itirməsi və bu ölkədə iqtisadi şərtlərin ağırlaşmasıdır.

Bu il isə belə görünür ki, azərbaycanlı miqrantların vətənə göndərdikləri pulun həcmi 400 milyon dollar həndəvərində olacaq. Lakin indiki azalmada rublun dəyərdən düşməsinin təsiri daha azdır. Çünki 2014-cü ilin sonunda rubl təxminən iki dəfə dəyər itirdikdən sonra əsasən sabitləşib və hazırda Rusiya milli valyutasının kursunda kəskin sıçrayışlar baş vermir. Azalmanın əsas səbəbi Rusiyadakı iqtisadi durğunluq və əhalinin gəlirlərinin kəskin azalmasıdır.

Doğrudur, Rusiyadan göndərilən pullar Azərbaycanın ÜDM-ində Tacikistan kimi az qala 50 faizlik paya malik deyildi, bununla belə, azərbaycanlı miqrantların vətəndəki yaxınlarına göndərdikləri pullar əhalinin gəlirlərində hiss olunacaq rol oynayır. Bu baxımdan, azalmanın Azərbaycan iqtisadiyyatında təsirləri də özünü göstərməkdədir...

YENİ MÜSAVAT
N 216 (6537) 1 oktyabr 2016

# Gürcüstan əsilli ziyalılardan Azər Süleymanova dəstək

**Bakıda yaşayan Gürcüstan doğumlu ziyalılarımız və millət vəkili Qənirə Paşayeva Marneuli rayon 35-ci Seçki Dairəsindən majoritar qaydada deputatlığa namizəd Azər Süleymanovla bağlı müraciət imzalayıblar. Müraciət Azər Süleymanovun Marneulidəki seçicilərinə ünvanlanıb. Onu təqdim edirik:**









**Əziz həmvətənlərimiz! Hörmətli Marneuli camaatı!**

İlk dəfədir ki, sizə belə kollegial müraciət edirik. Bu, səbəbsiz deyil. Biz müxtəlif elm, sənət adamları, ziyalılar boya-başa çatdığımız doğma diyardan kənarda olsaq da, daim ruhən sizinləyik, baharınız baharımız, qışınız qışımızdır. Biz fəxr edir, qürur duyuruq ki, öz milli-mənəvi dini və əxlaqi dəyərləri ilə öyünməyə haqqı olan 100 minlərlə türkün kompakt yaşadığı qədim Gürcüstanın bu əsrarəngiz bölgəsi bizim Ata Yurdumuz, son mənzilimizdir. Ona görə də doğma Azərbaycanımızla yanaşı, daim Gürcüstandakı ictimai-siyasi proseslərlə, təhlükəsizlik məsələləri ilə, iqtisadi durumla maraqlanır, onun uğurlarına sevinir, problemləri ilə qayğılanır, ona yardımçı olmaq istəyirik.

Sevindirici haldır ki, son illər Gürcüstanda demokratik-hüquqi dövlət quruculuğu sahəsində çox ciddi nailiyyətlər qazanılıb. İndi Gürcüstan Avropanın ayrılmaz bir parçasına çevrilməkdədir. Bu, gürcü xalqının yaxın keçmişimizdə tarixləşdirdiyi möhtəşəm milli - mücadilə hərəkatının qanunauyğun bəhrəsi, nəticəsidir. Bu hərəkatda isə gürcü xalqı ilə yanaşı burada yaşayan çoxsaylı millətlərin, o cümlədən azərbaycanlıların böyük rolu və əməyi var. Onlar Gürcüstanın müstəqilliyi, bütövlüyü, azadlığı uğrunda gedən gərgin mübarizələrdə həmişə gürcü xalqı ilə çiyin-çiyinə dayanaraq əsl vətənpərvərlik nümunəsi göstəriblər.

Bu gün Gürcüstanda aparılan əsaslı dövlət quruculuğu prosesində də onlar kənarda qalmayıblar. Dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, siyasi partiyalarda, ümumən cəmiyyətin bütün sahələrində azərbaycanlıların fəallığı hiss edilir və bu, çox sevindiricidir. Gürcüstanın ictimai-siyasi mühitində kifayət qədər aktiv olan tanınmış nüfuzlu soydaşlarımız var. Onlardan biri, bəlkə də birincisi millət vəkili Azər Süleymanovdur. O, gəncliyindən bu günədək bütün mübarizələrin ön xəttində dayanan, sözünü deyən, mövqeyini bildirən, geri çəkilməyən, qətiyyətli, qorxmaz bir xarakterə malikdir. Gürcüstanda elə bir milli, ictimai-siyasi əhəmiyyətli hadisə olmayıb ki, Azər Süleymanov onun sadəcə tamaşaçısı olsun. O, hər zaman olayların mərkəzində dayanan aktiv iştirakçıdır. Onun sözü, mövqeyi həmişə xalqın sözü, xalqın mövqeyi olub. O, heç vaxt heç kimin kölgəsinə sığınmayan, yalnız xalqına arxalanan və ona da daim arxa olmağa çalışan mətin iradəli bir şəxsiyyətdir. Azər Süleymanov el-obanın, eyni zamanda bütün Gürcüstanın sözün tam mənasında əsl fədaisidir. Ən qarışıq, qaranlıq illərdə belə bəzilərindən fərqli olaraq o, Vətəni tərk etmədi, əksinə, ona sahib çıxdı. Azər Süleymanov odun-alovun içindən keçmiş, bütün gərginliklərə mərdanə sinə gərmiş şərəfli avtobioqrafiyası olan Borçalı övladıdır. Azər Süleymanov hansı partiyada, hansı siyasi düşərgədə təmsil olunmasından asılı olmayaraq daim dövlət və xalqla birlikdədir. Dövlətin güclü, xalqın rahat, firavan olması üçün əlindən gələni edib və etməkdədir.



Gürcüstanda 8 oktyabrda keçiriləcək parlament seçkilərinə çox qısa bir zaman qalıb. Bu seçkinin də şəffaf və demokratik keçəcəyinə heç bir şübhə yoxdur. Əslində Azər Süleymanovun da bizim bu müraciətimizə ehtiyacı yoxdur - görünən dağa nə bələdçi? Ancaq biz bu gərgin mübarizə günlərində Borçalının bu fədakar oğlunun yanında olmağı, ona dəstək verməyi özümüzə borc bildik. Biz Gürcüstanın daxili işlərinə qarışmaq, seçicilərin qərarına yön vermək, təsir göstərmək fikrindən çox uzağıq. Sadəcə, elimizin-obamızın, doğmalarımızın düzgün seçim etməsini, haqqın-ədalətin yanında olmasını istəyirik.

Bir də onu qeyd etmək istəyirik ki, ulu öndər Heydər Əliyev Azər Süleymanovu yaxşı tanıyır və ona perspektivli siyasətçi kimi baxırdı. Möhtərəm prezidentimiz İlham Əliyev hazırda Azər Süleymanovun Gürcüstan Azərbaycan dövlətlərarası dostluq münasibətlərində əməyini lazımınca qiymətləndirir. Bu yaxınlarda Dünya Azərbaycanlılarının IV qurultayında Azər Süleymanovun prezident İlham Əliyevin sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif olunması bunun bariz nümunəsidir. Deputat seçilmək nə qədər şərəflidirsə, ondan qat-qat çox məsuliyyətlidir. Millət vəkili xalqla dövlət orqanları arasında ən etibarlı körpüdür. Azər Süleymanov indiyə qədər parlamentdə 3 dəfə təmsil olunub və hər dönəmdə bu missiyanı çox yüksək səviyyədə, professionallıqla yerinə yetirib. Bəlkə də hansısa seçici şəxsi xahişini yerinə yetirmədiyinə görə ondan incik qala bilər, ancaq geniş mənada Azər Süleymanov böyük milli məsələlərin müdafiəçisi, milli təfəkkürün daşıyıcısıdır.

Həm Azərbaycanın, həm də Gürcüstanın separatizmdən çəkdiyi əziyyətlər hələ də aradan qaldırılmayıb. Azər Süleymanov xain separatçıların məkrli oyunları qarşısında bir sipərdir. O bu gün bölgənin milli simvoluna çevrilib. Bu fikirlərimizi həm də ona görə belə açıq şəkildə ifadə edirik ki, seçki öncəsi mediada ona qarşı aparılan təbliğatdan narahatlıq keçiririk. Bir tərəfdən sevinirik ki, soydaşlarımızın gənclərdən ibarət çoxlu savadlı, intellektual, müasir simaları yetişib, ölkənin siyasi mühitinə yeni bir dalğa gəlir. Bu çox yaxşıdır. Bəyənilməyən odur ki, bu gənclərin bəziləri özlərinin siyasi karyeralarını Azər Süleymanov kimi uğurlu siyasətçini, xalq elçisini tənqid etməklə qazanmaq istəyirlər. Bu, düşmən dəyirmanına su tökməkdir, yanlış yoldur.

Biz Azər Süleymanovun həyat və siyasi fəaliyyətini nə qədər təftiş etsək də, orada milli təəssübkeşlikdən, milli mücadilədən, milli qayğıkeşlikdən başqa heç nə tapa bilmirik. Gəlin, yumruq kimi bir olaq, Qafqazı qarışdıran, az qala qanımızı içən separatçıları, düşmənləri sevindirməyək. Azər Süleymanovun layiq olduğu qiymətini öz səsimizlə bəyan edək, təsdiqləyək. Oktyabrın 8-də bütün Marneuli camaatı, seçicilər vətəndaş borcunu yerinə yetirmək üçün məntəqələrə gedib səs versin və yüksək faizlə Azər Süleymanovu majoritar qaydada yenidən millət vəkili seçsin. Onda bizim nə qədər qədirbilən olduğumuzu dost da görəcək, düşmən də!

**Camal Mustafayev**
Filosof, fəlsəfə elmləri doktoru, professor

**Ramiz Məmmədov**
AMEA Coğrafiya İnstitutunun direktoru, akademik

**Səlahəddin Xəlilov**
Filosof, AMEA-nın müxbir üzvü

**Qənirə Paşayeva**
Millət vəkili

**Hamlet İsaxanlı**
Xəzər Universitetinin təsisçisi və rektoru, fizika-riyaziyyat elmləri doktoru, professor, şair, yazar, publisist, tərcüməçi

**Əlişir Musayev**
Tibb elmləri doktoru professor

**Mədəd Çobanov**
Nyu-York Elmlər Akademiyasının akademiki, filologiya elmləri doktoru, professor

**Hidayət Nuriyev**
Fizika elmləri doktoru, professor

**Akif Bayramov**
ADİA-nın kafedra müdiri, professor

**Nəbi Əsgərov**
Filologiya elmlər doktoru, professor

**Əzizxan Tanrıverdiyev**
Filologiya elmləri doktoru, professor

**Vaqif İsrafilov**
ADPU-nin dekanı, dosent

**Teymurxan Rzayev**
Cərrah

**Ziyəddin Məmmədov**
Biologiya elmləri doktoru, professor

**Elbrus Seyidov**
Təqaüdçü-ziyalı

**Şərif Kərimli**
Jurnalist, “Qızıl qələm” mükafatı laureatı

**Müşfiq Borçalı**
Jurnalist, “Qızıl qələm” mükafatı laureatı

**Fəttah Seyidov**
Təqaüdçü-ziyalı

**P.S.** *Yüzlərlə soydaşımız bu müraciəti imzalamaq istədiyini bildirib.*

## Tərcümeyi-halı

*Azər Mirzə oğlu Süleymanov 1967-ci ildə Gürcüstanın Marneuli rayonunda dünyaya gəlib. 1984-cü ildə orta məktəbi, 89-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Mühasibat uçotu fakültəsini bitirib.*

*1991-ci ildən Marneuli Rayon İcraiyyə Komitəsində Maliyyə şöbəsinin müdiri vəzifəsində çalışıb.*

*2000-ci ildə ilk dəfə Gürcüstan parlamentinə seçilib.*

*2003-2008-ci illərdə Kvemo Kartli bölgəsinin qubernator müavini olub.*

*2008-ci il parlament seçkisində yenidən Gürcüstan parlamentinin üzvü seçilib.*

*Gürcüstan Vahid Milli Hərəkat Partiyasının üzvüdür.*

*8 oktyabr parlament seçkisində namizədliyi Marneuli rayon 35-ci Seçki Dairəsindən majoritar qaydada irəli sürülüb.*

*Ailəlidir, 3 övladı var.*





YENİ MÜSAVAT
N 216 (6537) 1 oktyabr 2016

**Sentyabrın 30-da Milli Məclisin payız sessiyasının ilk iclası dövlət himninin oxunması ilə öz işinə başladı. Spiker Oqtay Əsədov deputatları sessiyanın başlaması münasibətilə təbrik etdi. Spiker ölkə konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı referendumun yüksək səviyyədə keçirildiyini bildirdi və referendumda aktiv iştirak edən deputatlara da təşəkkür etdi.**



# Milli Məclis yeni qanunlar qəbul etdi

## Prezidentin fəaliyyətini təmin edən orqanların fəaliyyəti ilə bağlı dövlət qulluğunda yeni vəzifələr yaradılır; Avropa Parlamenti ilə əməkdaşlıq bərpa edilir

### Parlamentin payız sessiyasının ilk iclasında aktual məsələlər müzakirə olundu, bank soyğunçuluğundan, sığorta şirkətlərinin özbaşınalığından danışıldı

**Spiker qeyd etdi ki, 2015-ci ildə Avropa Parlamentinin qərəzli münasibətinə görə Azərbaycan bu qurumdakı fəaliyyətini dayandırmışdı:** "Ancaq il ərzində dəfələrlə əməkdaşlığın bərpası ilə əlaqədar Azərbaycan parlamentinə müraciətlər olub. Son olaraq Avropa Parlamentindən 15 nəfərlik səlahiyyətli nümayəndə heyəti gəlmişdi. Həmin heyət Azərbaycan prezidenti ilə də görüşdü, ölkə başçısı nümayəndə heyətinə özünün iradlarını çatdırdı". O.Əsədov Azərbaycan və Avropa Parlamenti arasındakı əməkdaşlıq məsələləri ilə bağlı müzakirələrin olacağını da istisna etmədi.

Spiker dedi ki, payız sessiyasında dövlət büdcəsi və digər məsələlər qəbul olunacaq.

MM-in payız sessiyasında çıxış edən **deputat Məlahət İbrahimqızı** sağlamlığında problem olan tələbələrin təhsil haqqından azad edilməsi barədə təklifini səsləndirdi. Ancaq spiker Oqtay Əsədov bildirdi ki, qanunvericilikdə belə bir güzəşt əksini tapıb.

**Deputat Qənirə Paşayeva da xanım həmkarının dediklərini müdafiə etdi:** "Əgər bu məsələ həllini tapıbsa da, bəzi universitetlər bu qaydaya əməl etmir. Bu yaxınlarda görmə qabiliyyətində problem olan tələbələr bizə də müraciət etmişdilər".

**Deputat Aydın Mirzəzadə parlamentin bir iclasının Gəncədə keçirilməsi barədə vaxtilə qaldırılan təklifi xatırlatdı:** "Qarşıdan dövlətçiliyimizin bərpasının 25 illiyi gəlir. Mən təklif edirəm ki, bu bayram münasibətilə Gəncədə, Lənkəranda, yaxud Mingəçevirdə parlamentin xüsusi iclasları keçirilsin".

**Fazil Mustafa Nuru Paşanın adının əbədiləşdirilməsi barədə yenidən məsələ qaldırdı:** "Türkiyədə Nuru Paşanın məzarı təmir olundu. Yaxşı olardı ki, Azərbaycan tərəfi də heç olmasa simvolik olaraq ora vəsait ayırardı. Moskvanın, Sankt-Peterburqun azad olunması dövlət səviyyəsində qeyd olunur. Azərbaycana heç bir aidiyyəti olmayan kommunist Mustafa Sübhinin adına küçə var. Amma Azərbaycanı xilas edən adamın adına heç bir ünvan yoxdur. Hətta küçə adı da. Biz mütləq bu məsələyə baxmalıyıq".

**Deputat Bəxtiyar Əliyev** Britaniya parlamentinin təmsilçisi Baronessa Koksun işğal olunmuş Azərbaycan ərazilərinə saysız-hesabsız qanunsuz olaraq səfər etdiyinə diqqət çəkdi. Bildirdi ki, ermənipərəst deputat Baronessa Koks erməni hərbçilərlə görüşərək onların xristianlıq uğrunda döyüşdüyünü deyir.

Spiker "Ayıb olmasın, Baronessa Koks atasını da tanımır", - deyə məsələyə reaksiya verdi...

**Deputat Elmira Axundova isə ailə qurmazdan əvvəl gənclərin tibbi müayinədən keçərkən ortaya çıxan fəlakətli nəticələrə diqqət çəkdi:** "2015-ci ilin avqustundan 2016-cı ilin sentyabrına qədər nikahdan əvvəl tibbi müayinədən 186 min 564 nəfər keçib. Onlardan təqribən 9 min talassemiya, 695 siflis və 125 HİV-yoluxma xəstəliyinin daşıyıcılarıdır. Bu rəqəmlərdən aşağıdakı nəticələrə gəlmək olar: Birincisi, belə bir şübhələr var idi ki, yeni evlənənlərin xahişi əsasında həkimlər təhlükəli məlumatı gizlədəcəklər. Görürük ki, həkimlər cütlükləri bir-birinin sağlıq vəziyyəti barədə məlumatlandırmaq üçün əllərindən gələni edirlər. Bundan əlavə, onlar bu xoşagəlməz məlumatı ictimailəşdirirlər ki, bizlər lazımi tədbirləri görə biləK. İkincisi, gənclərin sağlamlıq vəziyyəti ilə bağlı xüsusilə talassemiya və zöhrəvi xəstəliklər sahəsində xoşagəlməz mənzərə yaranıb. Vəziyyət hətta təsəvvür edə biləcəyimizdən də ciddidir. Bu mənzərənin yaranması ilə əlaqədar bir sıra təxirəsalınmaz tədbirlər görülməlidir. Mənim təkliflərim ondan ibarətdir ki, qeydiyyat şöbələrinə, yeni "ZAQS"-lara səlahiyyət verək ki, onlar gəncləri ixtisaslaşmış tibb müəssisələrinə məcburi müalicəyə göndərsinlər, zöhrəvi xəstəliklər olduqda isə xəstəlik tam sağalana qədər nigaha daxil olmağı qadağan etsinlər. SPİD və talassemiyaya gəldikdə isə xəstə uşaqların doğulması, digər tərəfin sifilisə yoluxması təhlükələri və bu xəstəliyin ağırları barədə nikaha girənlər ətraflı xəbərdar edilməlidirlər. Əks halda, bizdə xəstə əlil uşaqların sayı həndəsi silsilə üzrə artacaq".

**Deputat Aqil Abbas özünəməxsus qeydi ilə həmkarı Fazil Mustafanın Nuru Paşa ilə bağlı təklifini müdafiə etdiyini bildirdi:** "Türklər özləri Nuru Paşanın qəbrini 67 ildən sonra tapdılar. Qənirə xanım da orada iştirak və çıxış etdi. Amma deyirəm görən Nuru Paşaya abidə qoysaq, türklərin xətrinə dəyməz ki?"

**Deputat Qüdrət Həsənquliyev 2016-cı ildə Azərbaycanın xaricə oxumaq üçün tələbə göndərə bilməməsindən bəhs etdi. Dedi ki, Azərbaycana yüksək ixtisaslı kadrlar lazımdır:** "Ona görə də xüsusi bir qanun layihəsi qəbul etmək lazımdır. Biz yaxın 10 ildə hər il heç olmasa, 100 istedadlı tələbəni xarici ölkələrin yüksək ali təhsil müəssisələrinə göndərməliyik. Azərbaycanda çox yüksək ixtisaslı hüquqşünaslara ehtiyacı var".

"Milli Məclisdə xarici işlər və müdafiə nazirlərinin iştirakı ilə qapalı bir dinləmə keçirmək mümkündür. Eyni zamanda Milli Məclisdə Qarabağla bağlı xüsusi bir komitənin yaradılması da işin xeyrinə olardı" .

Bu fikirləri isə deputat Fərəc Quliyev Milli Məclisin 2016-cı il payız sessiyasının qanunvericilik işləri planı haqqında danışarkən söylədi. Deputat iqtisadi məsələlərlə bağlı dinləmənin keçirilməsini də zəruri saydı.

**Deputat Fəzail Ağamalı referendumla bağlı fikirlərini bölüşdü, xalqın hakimiyyətə birmənalı dəstək verdiyini vurğuladı. Ardınca sahibkarların işinə müdaxiləyə yol verilməsini qadağan edən əlavə və dəyişikliyə ehtiyac olduğunu vurğuladı:** "Təklif edirəm ki, sahibkarların işinə istənilən müdaxilə cinayət kimi qeyd olunsun və qanunda da əksini tapsın".

**Deputat Əli Məsimli dedi ki, Azərbaycanda ciddi islahatlara gedilməsinə zərurət var:** "Artıq 9 ildir Milli Məclisə təqdim olunmuş Rəqabət Məcəlləsinin qəbul edilməsini təklif edirəm. Rəqabət olmasa, inkişaf olmayacaq. Sahibkarlığa meydan verilsə, hər il Azərbaycanın büdcəsi 7-8 faiz artacaq". Deputat Azərbaycanın 2017-ci ilin dövlət büdcəsinin azalmasını "xoş olmayan" hadisə kimi qiymətləndirsə də, dedi ki, az büdcədən də səmərəli istifadə edib, ciddi işlər həyata keçirmək olar.

"Kimsə toy edibsə, mebel alıbsa, bunun dollar kreditlərinə nə dəxli var" deyə, Ə.Məsimli dövləti bu mövcud vəziyyətə müdaxilə etməyə çağırdı. Bildirdi ki, bir sıra banklar əhalini aldadıb, dollarla satışı həyata keçiriblər: "Dünyanın heç yerində bank sektorunda belə soyğunçuluq yoxdur".

**Deputat Tahir Kərimli rayon maşınlarının paytaxta girməsinin qadağan olunmasını sərbəst yerdəyişmə hüququnun pozulması aktı kimi dəyərləndirdi:** "Rayonlardan gəlirlər, xəstə olldu, olmadı, adamlar düşür maşınından, başqa maşınla Bakıya gəlir. Bununla da icra orqanının qərarı ilə konstitusiya məhdudlaşdırılır. Ona görə də təklif edirəm ki, ölkəmiqyaslı qanunların icrasına nəzarət orqanı yaradılsın".

**Deputat Gövhər Baxşəliyeva Azərbaycanda ailədaxili münaqişələrin dəhşətli sonluqla bitdiyini də xatırlatdı və konkret təklif verdi:** "Necə olur ki, dünən nikaha girən adamlar bir az sonra düşmənə çevrilirlər? Orta məktəbdən biz uşaqlarımıza ailədaki etik münasibətləri də aşılamalıyıq. Uşaqlarımıza gənc yaşından sivil münasibətləri aşılamalıyıq ki, belə dəhşətli hadisələr baş verməsin".

Deputat Musa Quliyev təklif etdi ki, 4 və daha çox uşağı olan ailələrə növbədənkənar mənzil tikintisi üçün güzəştlər edilsin.

**Deputat Qənirə Paşayeva Əli bəy Hüseynzadənin qəbirüstünün yüksək səviyyədə abadlaşdırılması və abidəsinin qoyulması təklifi ilə çıxış etdi.**

"Kredit büroları haqqında" qanun layihəsi barədə məlumat verən **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə** bildirdi ki, layihə prezident İlham Əliyev tərəfindən Milli Məclisə daxil olub: "Kredit bürolarını xidmətdən fərqləndirən başlıca cəhət ondan ibarətdir ki, burada borclananların məlumatlarının təhlili aparılacaq. Kredit bürolarında toplanmış məlumat bazasından isə artıq borclananların maddi vəziyyətini ətraflı təhlil etmək mümkün olacaq".

**Deputat Qüdrət Həsənquliyev "Sığorta haqqında" Qanuna edilən dəyişiklik zamanı sığorta şirkətlərini sərt tənqid etdi:** "Sığorta şirkətləri bu camaatla niyə belə rəftar edir? Son vaxtlar sığorta şirkətləri sürücüləri incidirlər. Bir neçə sığorta şirkəti ilə şəxsən danışmışam. Sual verirəm ki, axı bu millətlə niyə belə rəftar edirsiniz ? Mənə deyirlər ki, bəzən maşınların qiyməti ucuz olur, ona görə də düzəltdirməyə dəymir. Yaxud deyirlər ki, gedib bizi versinlər məhkəməyə. Hesab edirəm ki, sığorta şirkətləri haqqında ciddi ölçü götürülməlidir".

Milli Məclisin iclasında "Yol hərəkəti haqqında" Qanuna dəyişikliklər müzakirəyə çıxarılıb.

Qanunun 33-cü maddəsinə təklif olunan dəyişiklikliyə əsasən, "BE" kateqoriyasına aid nəqliyyat vasitələrinin idarəetmə hüququ 19 yaşdan hesablanmaq şərti ilə yanaşı, "B" kateqoriyasına daxil olan nəqliyyat vasitələrinin idarə etmək sahəsində təcrübəni 1 ildən az olmamaq şərti ilə götürüləcək.

"CE" kateqoriyasına daxil olan nəqliyyat vasitələrinin idarəetmə hüququnda da 21 yaşdan yuxarı şərt ilə yanaşı, "C" kateqoriyasına daxil olan nəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübənin 3 ildən az olmamaq şərti əlavə edilir. Bundan başqa, "D" kateqoriyasına daxil olan nəqliyyat vasitələrinin idarəetmə hüququnda 23 yaşdan hesablanmaq şərt ilə yanaşı, 65 yaşadək və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübə 5 ildən az olmamaq şərti əsas götürüləcək.

Digər əlavəyə görə isə "DE" kateqoriyasına daxil olan nəqliyyat vasitələrinin idarəetmə hüququnda 26 yaşdan hesablanmaq şərti ilə paralel olaraq, 65 yaşadək və "D" kateqoriyasına daxil olan nəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübə 3 ildən az olmamaq şərti də qaydaya daxil ediləcək.

Layihə səsə qoyularaq qəbul olundu.

MM Vergilər Nazirliyinə daha bir səlahiyyət verilməsinə dair qanun layihəsini də qəbul edib. Yeni qaydaya görə "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihəsinə əsasən vergi orqanları vergi ödəyicisi olan fiziki və hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqdan sonra dərhal həmin məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edə bilər. MM bununla bağlı Vergi Məcəlləsinin 24.0.2-1-ci maddəsinə dəyişiklik edib. İndiyədək vergi ödəyicisi olan fiziki və hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqdan sonra vergi orqanları həmin məhdudlaşdırmanın götürülməsi barədə 2 iş günü ərzində məhkəməyə müraciət etməli idi. Qanuna təklif edilən bu dəyişiklik qəbul olunarsa, vergi orqanları dərhal həmin məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edə biləcək.

İclasda "Dövlət qulluğu haqqında" Qanunun 11.1-ci maddəsinə əlavələr də müzakirə edilib. Əlavəyə görə, maddənin 1-ci hissəsində (İnzibati vəzifələrin ali təsnifatı) ali vəzifə təsnifatı siyahısına "Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin vəzifəsi" də daxil edilir.

Maddənin 2-ci hissəsində (inzibati vəzifələrin birinci təsnifatı) birinci dərəcəli vəzifə təsnifatı siyahısına da Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin və onların birinci müavinləri ilə yanaşı, "orqan rəhbərlərinin müavinləri, habelə həmin orqanlarda bölmə rəhbərləri" vəzifələri də daxil edilir.

Maddənin 3-cü hissəsində (inzibati vəzifələrin ikinci təsnifatı) ikinci dərəcəli vəzifə təsnifatı siyahısı isə dəyişdirilir. Belə ki, qüvvədə olan "Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin müavinlərinin vəzifələri" təsnifatında orqan rəhbərlərinin müavinləri vəzifələri ləğv edilərək, orqanların bölmə rəhbərləri daxil edilir.

Layihədə o da qeyd olunur ki, sənəd Azərbaycanın dövlət başçısının fəaliyyətini təmin edən orqanların işinin səmərəliyini təşkil etmək məqsədi ilə təqdim olunub.

Layihə səsə qoyularaq qəbul olunub.

Milli Məclis günün ikinci yarısında Azərbaycana qərəzli münasibətinə etiraz olaraq 2015-ci il sentyabrın 14-dən əməkdaşlığı dayandırdığı Avropa Parlamenti ilə yenidən əməkdaşlıq edilməsi barədə də qərar qəbul etdi.

❑ **Elşad PAŞASOY**

**Gələn ilin dövlət büdcəsi açıqlanıb. Maliyyə Nazirliyindən verilən məlumata görə, büdcə gəlirləri 15,955 milyard manat, xərcləri 16,6 milyard manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 15 milyard 312 milyon 619 min manat, yerli gəlirləri 642,381 milyon manat, mərkəzləşdirilmiş xərcləri 15 milyard 881,730 milyon manat, yerli xərcləri 718,270 milyon manat) məbləğində təsdiq edilməsi proqnozlaşdırılır. Beləliklə, gələn ilin dövlət büdcəsinin 645 milyon manatlıq kəsirlə icra olunması nəzərdə tutulub.**

# Büdcəyə neftdən daha çox, manatın kursu təsir edəcək - ekspert

## Elşad Məmmədov: “Büdcə layihəsi sərt monetar siyasətin məntiqi davamı olaraq qiymətləndirilməlidir”



**Professor Elşad Məmmədov büdcəni musavat.com-a detallı şəkildə şərh edib. Onun sözlərinə görə, 2017-ci ilin dövlət büdcəsinin layihəsinin təhlili bir sıra məqamları dəqiqləşdirməyə imkan verir:** “İlk növbədə qeyd etmək lazımdır ki, son illər ərzində ilk dəfə Maliyyə Nazirliyi tərəfindən müzakirəyə təqdim olunan büdcə layihəsini birmənalı şəkildə investisiyayönümlü deyil, sosialyönümlü adlandırmaq olar. Düzdür, 2016-cı ilin dövlət büdcəsində sosialyönümlü xərclərlə investisiyayönümlü xərclərin həcmi təxminən eyni idi. Lakin birmənalı şəkildə 2016-cı ilin dövlət büdcəsini məhz sosialyönümlü adlandırmaq çətin idi. Ondan əvvəlki illərin büdcələrini isə birmənalı şəkildə investisiyayönümlü adlandırmaq olardı. Bunları nəzərə alaraq, belə nəticəyə gəlmək olar ki, milli iqtisadiyyatın keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunun şahidi oluruq. Eyni zamanda makroiqtisadi proseslərdə obyektiv diaqnostik təhlilin həyata keçirilməsi üçün analitik aparat sistemli, kompleksli, strukturlu və proqnoz məzmunlu olmalıdır. Təqdim olunan büdcə layihəsinin məhz bu rakursdan təhlili ölkə iqtisadiyyatının inkişaf tendensiyalarının obyektiv qiymətləndirilməsinə imkan verir”.

**Ekspert qeyd edib ki, bu istiqamətdə apardığı təhlil nəticəsində əsas nəticələrə gəlmək olar:** “Büdcə layihəsi son aylar hökumətin iqtisadi bloku tərəfindən aparılan sərt monetar siyasətin məntiqi davamı olaraq qiymətləndirilməlidir, yəni pul kütləsinin daraldılmasına yönəlmiş siyasətin 2017-ci ildə də həyata keçirilməsi gözlənilir. Həmçinin büdcədə ümumi sosialyönümlü xərclərin 6,6 faiz həcmində artırılması nəzərdə tutulur ki, bu da inflyasiyanın ən optimistik proqnozlara əsasən belə, gözlənilən göstəricilərindən xeyli aşağıdır. Burada bir məqama mütləq nəzər salınmalıdır ki, inflyasiyanın ümumi göstəriciləri iqtisadi nəzəriyyədə universal makroiqtisadi göstərici kimi qəbul olunsa da, müasir mürəkkəb iqtisadi sistemlərdə dünyanın aparıcı iqtisadi analitikləri öz hesabatlarında daha mütərəqqi, iqtisadi dinamizmi, real və potensial iqtisadi trendləri əks etdirən göstəricilərdən istifadə edirlər. Misal üçün, istehlak zənbilinin indeks göstəricilərinin dinamikası göstəricisi. Düşünürəm ki, belə göstəricilərin tətbiqi, əhalinin istehlak xərclərinin artımı baxımından inflyasiya göstəricilərinin daha fərqli rəqəmlərlə ifadə olunmasını əks etdirəcək. Belə olan halda həmin 6,6 faizlik artım adekvat indeksasiya prosesini əks etdirmir”.

**E.Məmmədov qeyd edib ki, sosialyönümlü xərclərin ümumilikdə nominal göstəricilərdə 6,6 faiz artımının fonunda sosial müdafiə xərclərinin 600 milyon manata yaxın azaldılması təəccüb doğurur:** “Əgər o xərclərin azalması əhalinin sosial müdafiəsi prosesinin zəifləyəcəyinə səbəb olacaqsa, bu, sözsüz ki, təəssüf doğurur. Əgər həmin 600 milyon manata yaxın vəsaitin əhalinin sosial rifahına aidiyyəti yox idisə, onda əvvəlki illərdə bu vəsaitin ayrılmasına nə ehtiyac var idi”.

**Ekspert bildirib ki, ölkədə elm tutumlu, innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılmasına keçidin prioritet kimi qəbul edilməsi şəraitində büdcədə elmə ayrılan vəsaitin hətta əvvəlki cüzi rəqəmlərə belə nisbətən azaldılması və ümumi büdcə xərclərinin 0,7-0,8 faizini təşkil etməsi də təəssüf doğurur:** “Respublikada səhiyyə sisteminin dayanıqlı şəkildə inkişafına yönələn tədbirlərin həyata keçirilməsinə böyük zərurət olduğu halda, icbari tibbi sığorta və digər bu kimi prioritet strateji layihələrin həyata keçirilməsinə hazırlıq getdiyi zaman səhiyyə xərclərinin azaldılması da narahatlıq doğurur. Eyni zamanda büdcədə investisiyayönümlü xərclərin 40 faizə yaxın azaldılması nəzərdə tutulub. Bu, həm sənaye və tikinti xərclərinə, həm də əsaslı vəsait qoyuluşu xərclərinə aiddir. Bir tərəfdən bu addım mürəkkəb iqtisadi şəraitlə müəyyən dərəcədə izah oluna bilər. Lakin digər tərəfdən, bu, sözsüz ki, iş yerlərinin bağlanması, işgüzar aktivliyin azalması və resessiya amillərinin iqtisadiyyatda güclənməsinə səbəb olacaq. Çünki sistem formalaşdıran sahələrdə belə kəskin azalmanın ciddi multiplikativ effektə səbəb olmasının ehtimalı yüksəkdir”.

**E.Məmmədovun fikrincə, büdcə layihəsində son illər ərzində ilk dəfə Vergilər Nazirliyi xətti ilə proqnozlaşdırılan daxilolmaların Neft Fondunun birbaşa transfertlərini üstələməsi nəzərdə tutulur:** “İlk baxışdan bu, müsbət amildir. Lakin təəssüf ki, bu, əsasən Vergilər Nazirliyi xətti ilə daxilolmaların artırılması ilə deyil, Neft Fondu tərəfindən həyata keçirilən transfertlərin həcminin kəskin şəkildə enməsi ilə bağlıdır. Bundan əlavə, nəzərə almaq lazımdır ki, vergi daxil olmalarının da əhəmiyyətli hissəsini məhz neft gəlirlərindən tutulan vergilər təşkil edir. Dövlət Gömrük Komitəsi xətti ilə büdcə daxilolmalarında 20 faizdən çox artım proqnozlaşdırılır ki, bunun mümkün səbəbləri bir tərəfdən devalvasiya və qiymət artımından, digər tərəfdən isə gömrük sistemində şəffaflığın müəyyən dərəcədə artırılmasından ibarət olan bilər. Neft Fondundan büdcəyə transfertlərin azalması ilə bağlı isə hesab edirəm ki, Neft Fondunun başlıca məqsədi mümkün makroiqtisadi risklərin ölkə iqtisadiyyatına təsirlərini minimuma etdirməkdən ibarətdir. Belə olan halda milli iqtisadiyyatın çox mürəkkəb dövründə Neft Fondunun imkanlarından makroiqtisadi problemlərin dərinləşməsinin qarşısının alınması üçün daha aktiv, eyni zamanda ölkədə real sektorun inkişafı üçün məqsədyönlü şəkildə istifadə etmək lazımdır. Həm də nəzərə almaq lazımdır ki, yüksək ehtimalla baş verəcək manatın zəifləməsi Neft Fondunun gəlirlərini manatla ifadədə xeyli artıracaq”.

**Ekspertin sözlərinə görə, yaxın aylarda neft qiymətlərində ola biləcək dəyişikliklər, eyni zamanda böyük ehtimalla baş verəcək milli valyutanın zəifləməsi büdcə göstəricilərinə təsir göstərə bilən amillərdəndir:** “Eyni zamanda ikinci amilin birinciyə nisbətən təsirinin daha çox olacağını proqnozlaşdırmaq lazımdır. Çünki neft qiymətlərində ciddi dəyişikliklərin olması hesab edirəm ki, yaxın dövrdə gözlənilmir”. **E.Məmmədov qeyd edib ki, büdcə layihəsində müəyyən müsbət tendensiyaların olması ilə yanaşı, təqdim edilən layihədə ciddi korreksiyaların aparılmasına ehtiyac var:** “Ümid edirəm ki, parlament və Prezident Administrasiyası səviyyəsində müvafiq ekspertiza zamanı həmin korreksiyalar baş verəcək”.

❑ Röya RƏFİYEVA

# Gənc məzunların iş problemi



**Xalid KAZIMLI**

**4-5 il öncə sosial şəbəkədə “dostlar, məni təbrik edə bilərsiniz, övladım 600 (590, 610, 680 və s.) bal toplayaraq universitetə daxil oldu” deyə qürur və ümid dolu statuslar yazan valideynlər hazırda bu cür yazırlar: “Məzun övladım güman gələn hər yerə CV göndərir, özüm dost-tanışlara ağız açıram, amma ona iş tapılmır”.**

Durum belədir. Yüksək bal toplayaraq universitetlərə qəbul olan, oranı müvəffəq qiymətlərlə bitirən, daha sonra magistr təhsili alan minlərlə gənc ixtisaslarına uyğun iş tapa bilmir.

Onların içində iki universiteti qırmızı diplomla bitirən, nazirliklərin, dövlət komitələrinin müəssisələrində yaranmış vakansiyalar üzrə dövlət qulluğuna qəbul imtahanlarının birinci mərhələsini uğurla keçən gənc kadrlar da var, fəqət çoxu imtahanların ikinci turunda qapı dalında qoyulur. Onları nəyə görəsə işə götürmürlər, yerlər boş saxlanılır, yeni imtahan elan edilir.

Söz yox, ali məktəbləri bitirənlərin hamısı elə həmin ildəcə iş tapmalıdır deyə bir qayda yoxdur. Üstəlik, universitet məzunlarının bəlkə də yarıdan çoxu hazır mütəxəssis deyillər - ya ali məktəbi ölüm-zülüm bitiriblər, ya da əvvəlcədən sevmədikləri ixtisaslara yiyələniblər.

Ancaq fakt budur ki, təhsil göstəriciləri və işgüzarlıq qabiliyyətləri ilə seçilənlər də fərqli münasibətlə üzləşmirlər.

İşə qəbulda yuxarılardan tapşırığın, rüşvətin, tanışlığın rolu barədə çox danışmaq olar. Bu da ölkəmizdəki acı gerçəkliklərdən biridir.

Əgər universiteti qırmızı diplomla bitirmiş, əlavə olaraq bir neçə kursda təhsil alaraq kompüter, əcnəbi dil biliklərini təkmilləşdirmiş gənc kadrla yüksək mənsəbli bir vəzifə adamının tapşırdığı qabiliyyətsiz məzun hansısa vakansiyanı tutmaq müstəvisində rəqib olursa, yüzdə doxsan doqquz halda ikinci qalib gəlir. İşə götürənlər üstünlüyü savadlıya, bacarıqlıya deyil, özləri də istəmədən onun rəqibinə, daha dəqiqi, “arxalı mütəxəssis”ə verirlər. Çünki buna məcburdurlar.

Ona görə də universiteti böyük ümidlərlə bitirmiş gənc məzunlar bir neçə aylıq intensiv iş axtarışlarından və bir neçə dəfə ard-arda məruz qaldıqları haqsızlıqdan sonra ruhdan düşürlər. Çoxları ixtisaslarına uyğun olmasa da, “nə olur-olsun, təki iş olsun” deyə ortabab məvacibi olan işlərə girişirlər.

Nəticədə gənc mütəxəssisin əxz etdiyi nəzəri biliklər yavaş-yavaş unudulur, praktiki təcrübəyə çevrilmir, 4+2 illik bakalavr-magistr təhsili öz əhəmiyyətini itirir.

Bu ilin yayında TQDK-nın keçirdiyi qəbul imtahanında yüksək bal toplayaraq universitetə daxil olmaq hüququ qazanan sumqayıtlı gəncin vaqiəsi yəqin ki, çoxlarının yadındadır. Məlum oldu ki, o, universitetə dostuyla bəhsləşdiyi üçün daxil olub, əslində xeyli müddət əvvəl bir universiteti bitirib, bir neçə il bankda işləyib, sonradan ixtisara düşüb və hazırda yarmarkada fəhləlik edir.

Bu, ondan xəbər verirdi ki, həmin şəxs xüsusi zəkası, bilik və bacarığı olan gəncdir. Uzun illərdən sonra yenidən imtahan verib yüksək nəticə göstərirsə, deməli, öyrəndiklərini unutmayıb, yaddaşı da yaxşıdır və o, yaxşı mütəxəssisdir. Ancaq onun bu cür mütəxəssis olmasına baxmayaraq, işsiz qalması, əlacsızlıqdan gedib qara fəhlə işləməsi də ondan xəbər verir ki, adamın qolundan tutası kimsəsi yoxdur və onun qabiliyyətini heç kəs nəzərə almır.

Belə gənclər yüzlərlə, minlərlədir.

Sonra da oturub qüdrətli dövlətdən, iqtisadi inkişafdan, sosial ədalətdən, normal cəmiyyətdən danışırıq.

Elmi potensialı inkişaf etdirilməyən, əksinə, günbəgün itirilən, yüksək ixtisaslı kadrlarını perik salınan, kadr bankı olmayan ölkə nə iqtisadi inkişafa nail ola bilər, nə də hər hansı bir sahəni irəli aparmağı bacarar.

Dönüb Yaponiyanın, Cənubi Koreyanın müvafiq təcrübəsinə baxmaq, onların gənc kadrları necə yetişdirdiklərinə, necə inkişaf etdirdiklərinə, sonra onların potensialından necə yararlandıqlarına baxmaq lazımdır.

İnkişaf etmiş ölkələrin hamısında gənc kadrlarla bağlı problemin həllini bu və ya digər şəkildə tapıblar. Onların təcrübəsini öyrənmək gərəkdir. Çətin bir iş də deyil. Yetər ki, məsələyə şüurlu şəkildə, dövlətçilik prizmasından yanaşılsın.



# Soğança büdcəsi

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud meşə sanitarsız qalanda

**Məktəbə təzə direktor gəlib, hər səhər uşaqları düzüb himn oxutdurur. Qorxuram bir gün uşağı götürməyə gedəndə baxam görəm uşaq yoxdur, direktor hamısını yığıb Qarabağa aparıb. Valideynlər isə məşhur söhbəti təkrar edirlər: "Cibi yoxdur, acından öləcəyik". Görəsən, haçana qədər Azərbaycanda təzə müdir qoyulanda adamlar ilk növbədə o "Mozalan" süjetini xatırlayacaqlar? Bu nəsə alın yazısı, karmadır, nədir?**

Bunu yazırdım ki, rastıma Mirzə Fətəli Axundovun 172 il bundan qabaq qələmə aldığı "Hekayəti-xırs-quldurbasan" pyesindən bir parça çıxdı. Oxuyursan, dəhşətə gəlirsən. Adam millətin psixoloji portretini yaradıb sanki: "Vallah, əgər Tarverdi mənim sözlərimdən quldurluğa getsə, biçarənin heç təqsiri yoxdur. O neyləsin ki, bu viran olmuş ölkənin qızları quldurluq, oğurluq bacarmayanı sevmirlər. Divanbəyinə deyən gərək ki, biçarə gədələri niyə oğurluqdan, quldurluqdan ötrü incidirsən? Bacarırsan ölkəmizin qızlarına qadağan elə ki, quldur olmayan oğlanlardan zəhlələri getməsin. Onda mən zamın ki, qurd qoyun ilə otlaya!"

Doğrudur, bir aralar dövlətçiliyimizin tərəqqi və "Qarabulaq" epoxasına qədəm qoymuşduq, o zamanlar meşədə sanitarlar vardı, nəslin sağlam davam etməsinin qayğısına qalırdılar. Hacı Məmmədov kimi canavarı tutub zindana salan hökumətin axırı yaxşı olmaz. Faktlara baxın: yadıma düşəni ən azı 2 nəfəri Hacı müəllim haqlı olaraq yolmuşdu. Bunlardan biri nəqliyyat sektorunda çalışırdı, Hacı müəllim onun atasını girov götürüb 3 milyon dollara dəyişmişdi. Sonradan məhkəmədə tragikomik fakt ortaya çıxmışdı. Sən demə, atası girov düşən şəxs Hacı müəllimdən də sinik imiş, girovu azad eləmək üçün ümumi qazandan 1 milyon dollar artıq götürüb müdirinə atıbmış. Müdirə deyib, atam üçün 3 milyon istəyirlər, Hacıya isə 2 milyon veribmiş. Fantastik lotu idi, indi də şirkətlər qrupu-zadı var, adını çəkib biznes imicini korlamaq istəmirəm. Bizə bazar iqtisadiyyatını gözəl bilən mütəxəssislər lazımdır. Bircə onu qeyd edim ki, bu atası girov olmuş şəxs hazırda Beynəlxalq Bank işində ən böyük borclulardan biridir.

Yaxud Hacı müəllimin ilişdiyi son girov hadisəsinin subyekti məhz Beynəlxalq Bankın müdirinin arvadı idi. MTN əməliyyat keçirdi, arvadı azad elədilər, sonra bankirlə çəkist quda olub başladılar dövlətin pullarını iştahla ötürməyə. Bəs necə, adam qurban olmuşdu, ondan kim hesab istəyəcəkdi? İndi buyurun, rəsmi ittihama görə həmin arvadın bankdan oğurladığı pul 18 milyon dollardan çoxdur. Üstəlik, tuta da bilməyiblər, xaricdə kef edir, deyilənə görə Britaniya vətəndaşıdır. 2005-də Hacı Məmmədov uzaqgörənliklə bunu tutub şəxsi türməsinə salanda, yazığı niyə qınayırdınız?

Sanitarları qırmaq, tələyə salıb tutmaq meşə üçün pis perspektiv açır, necə ki indi biz xəstə-xüstə məmurların əlində qalmışıq. Tək o mədəsiz generalları, böyrəksiz bankirləri nəzərdə tutmuram. 2017-ci il dövlət büdcəsinin qəbulu ağlamalı günümüzün qabaqda olmasının əlamətləri ilə zəngin idi.

Məsələn, hərbi xərcləri 3-4 dəfə azaldıblar, olub cəmi 1 milyard manat. Deməli, Lazım müəllim gələn il gəlməyəcək. Pul bundan 4 dəfə çox olanda gəlməyən Lazım indi niyə gəlsin?

Eyni zamanda, orduya ayrılan pul azalsa da hüquq-mühafizə orqanlarına ayrılan pul yerində durur, hətta 2-3 faiz artım vardır. Deməli, gələn il əsas mövzu hakimiyyəti xalqdan qorumaq olacaqdır, nəinki Azərbaycanı işğaldan müdafiə eləmək.

Naxçıvanın inkişafını çox tərifləyirlər, ancaq yenə büdcədən ən çox subsidiya, yardım Naxçıvan rayonlarına ayrılıb. Fərq fantastikdir, misal üçün, Gədəbəyə adambaşına 30 manat subsidiya ayrılıbsa, Şərura 850 manat ayrılıb. Blokadaya görədirsə, bu dəqiqə Azərbaycanın başqa rayonları elə Bakının özü blokadasındadır. O cümlədən Naxçıvan Vasif müəllimin sayəsində belə fısqırıq tərəqqi edibsə, niyə bu qədər yardıma ehtiyacı var? Bəs hanı o iş yerlərinin-zadın gətirdiyi gəlir, büdcəyə verdiyi ödəmələr və sairə? Bu pişikdirsə, ət hanı, ətdirsə pişik hanı?

Ancaq ümumən müsbət haldır. Büdcəmizin azalmasını nəzərdə tuturam. Onsuz pul çox olanda da xalqa dilənçi payı çatırdı, it-qurd gəlib cürbəcür konsertlər, idman yarışları adıyla aparırdı. Soğan olsun, nağd olsun, Aqil Abbas demişkən...

# Amerika Qarabağ məsələsini "soyuducuya" qoydu

## Ekspert: "ABŞ istəməyincə, Dağlıq Qarabağ problemi həll olunmayacaq"

**"Hazırda Dağlıq Qarabağ münaqişəsinin nizamlanması mümkün deyil". Bu bəyanatla ABŞ-ın dövlət katibi Con Kerri çıxış edib. O hesab edir ki, Azərbaycan və Ermənistan arasında yaranan Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün şərait hələ yaranmayıb.**

Con Kerri hesab edir ki, bu gün bir sıra dondurulmuş münaqişələr, o cümlədən Dağlıq Qarabağ münaqişəsi var ki, onların hazırda nizamlanma mümkünlüyü nəzərdən keçirilmir. İlk öncə ona görə ki, liderlər buna hazır deyillər.

**Politoloq Şahin Cəfərli hesab edir ki, ABŞ və Rusiyanın Suriyadakı qeyri-səmimi əməkdaşlığı bitən kimi, Kerri bu cür bəyanat verdi:** "Bu, o deməkdir ki, Suriyadakı kooperasiyanın uğursuzluqla yekunlaşması iki böyük dövlətin digər istiqamətlərdə və regionlarda, o cümlədən Qarabağ məsələsindəki əməkdaşlığına da təsir edir və edəcək.

Amerika tərəfi bununla həm də Azərbaycan rəhbərliyinə mesaj verir ki, Rusiyanın təkliflərini qəbul etməyiniz məsləhət deyil. Azərbaycan tərəfi onsuz da həmin təklifləri qəbul etməkdə həvəsli görünmürdü, lakin Moskvanın mümkün basqılarını neytrallaşdıracaq faktora ehtiyac var idi, belə faktor isə Amerikadan başqası deyil. Məncə, referenduma Vaşinqtonun loyal münasibətinə bir də bu prizmadan baxmaq lazımdır.

Belə görünür ki, Qarabağ məsələsi növbəti dəfə qeyri-müəyyən müddətə soyuducuya qoyulur. Əlverişsiz haldənsə, bu, daha az pis olan variantdır. Suriyada isə gərginləşmə qaçılmazdır. Bundan sonra suriyalı müxaliflərə daha müasir silahların, o cümlədən hava hücumundan müdafiə sistemlərinin




verilməsi ən ciddi ehtimaldır. Bunun nəticəsində Əsəd və Rusiya hərbi aviasiyasının uçuşları xeyli məhdudlaşa, hətta qeyri-mümkün hala gələ bilər. Bu isə təbii şəkildə Suriya səmasının uçuşa yasaq bölgəyə çevrilməsi mənasına gəlir. Başqa bir ehtimal ABŞ-ın və koalisiyanın Əsədin ordusuna, hərbi obyektlərinə raket-aviasiya zərbələri endirərək rejimin hərbi potensialını əzməsi və onu genişmiqyaslı hərbi əməliyyatlar keçirmək imkanından məhrum etməsidir. Humanitar yardım karvanını bombalayaraq insanlığa qarşı cinayətə yol verən Rusiyaya yeni sanksiyaların tətbiqi də mümkündür. Bir sözlə, ABŞ-Rusiya münasibətlərində işbirliyi yerinə, konfrontasiya xətti yenidən önə çıxır".

**Politoloq Natiq Miri isə bildirdi ki, Qarabağ probleminin açarının təkcə Rusiyada deyil, həm də ABŞ-da olduğu bir daha təsdiqlənməkdədir:** "Əvvəllər də mən elə "Yeni Müsavat"a açıqlamalarımda demişdim ki, ABŞ istəməyincə, Dağlıq Qarabağ problemi həll olunmayacaq. Baxmayaraq ki, Azərbaycanda bir çox siyasilər, ekspertlər o fikirdədir ki, Dağlıq Qarabağ probleminin açarı məhz Rusiyadadır. Ancaq mən heç vaxt bu cür düşünməmişəm. Bu gün də o fikirdəyəm ki, sözügedən problemin açarı nə qədər Rusiyadadırsa, bir o qədər də ABŞ-dadır. ABŞ istəməyincə, bu problem öz həllini tapmayacaq. ABŞ Azərbaycanın Rusiyanın orbitinə qayıtması şərti ilə Dağlıq Qarabağ probleminin həllinə heç vaxt razı olmayacaq. Con Kerrinin indiki mərhələdə problemin həllinin mümkün olmadığını bəyan eləməsi bu deməkdir. ABŞ-ın Cənubi Qafqazda, xüsusilə Azərbaycanda və Xəzər hövzəsində geosiyasi maraqları var. Azərbaycan əgər Rusiyanın orbitinə qayıdar və Avrasiya İttifaqının üzvü olarsa, KTMT-yə daxil olarsa və Rusiya qoşunları yenidən Azərbaycan ərazilərinə qayıdarsa, bu, ABŞ-ın qəbul edəcəyi məsələ deyil. Ona görə də Amerika bu şərtlər altında Dağlıq Qarabağ probleminin həllinə heç zaman imkan verməyəcək".

**Ekspertin fikrincə, Suriya məsələsində Vaşinqtonla Moskvanın uzlaşmaması, fikir ayrılığının dərinləşməsi də bu paytaxtların Dağlıq Qarabağ problemi ilə bağlı uzlaşmasını əngəlləyir:** "Suriyada ABŞ-Rusiya qarşıdurması daha da güclənərsə, bu ziddiyyət digər cəbhələrə, o cümlədən Ukraynaya da transfer olunacaq. Belə bir durumda isə ABŞ-la Rusiyanın Dağlıq Qarabağ məsələsində uzlaşması mümkün deyil. Uzlaşmanın mümkün olması üçün hər iki dövlətin digər bölgələrdə də uzlaşması lazımdır. Hər halda, Con Kerri də hazırda Rusiya ilə münasibətlərin vəziyyətini, gərginləşməkdə olduğunu nəzərə alıb həmin bəyanatı verib. Azərbaycan və Ermənistan liderlərinin münaqişənin nizamlanmasına hazır olmadığı barədə Kerrinin dediklərinə gəlincə, yaxşı olardı ki, dövlət katibi əsl həqiqəti-məhz Ermənistan prezidentinin sülhə hazır olmadığını, pozuculuq etdiyini dilə gətirəydi. Azərbaycan prezidenti dəfələrlə bəyan edib ki, münaqişənin ədalətli həllinə tərəfdardır".

Etibar SEYİDAĞA

# Səudiyyə Ərəbistanı OPEC-ə gizli sövdələşmə təklif edibmiş

**Bugünlərdə OPEC ölkələrinin hasilat həcminin dondurulması ilə bağlı gəldikləri razılıqdan az öncə Səudiyyə Ərəbistanının OPEC-ə gizli sövdələşmə təklifi etdiyi məlum olub.**

Virtualaz.org "Wall Street Journal"a istinadən xəbər verir ki, məlumatlı mənbələrin bildirdiklərinə görə, Əlcəzairdəki iclasa az qalmış ər-Riyad hasilat həcmini sutkalıq 400 min barel azaltmağa razı olduğunu deyib, bircə şərtlə




ki, İran hasilat həcmini sutkalıq 3,6 milyon barel həcmində saxlasın və sanksiyaların tətbiqindən öncəki həcmə qədər qaldırmasın. Sutkalıq hasilat həcmini 4,2 milyon barelə yüksəltməkdə israrlı olan Tehran bu təkliflə razılaşmayıb.

Mənbələrin bildirdiklərinə görə, əvvəllər neftin qiymətinin 20 dollara düşəcəyi halda belə buna davam gətirə biləcəyini bəyan edən Səudiyyə Ərəbistanı artan iqtisadi çətinliklər üzündən daha çevik mövqe sərgiləməyə məcbur olub. Belə ki, bugünlərdə ölkədə məmurların güzəştləri ixtisar edilib, yüksək vəzifəli şəxslərin maaşları isə 20% azaldılıb.

Xatırladaq ki, OPEC-in Əlcəzairdə keçirilmiş iclasında sutkalıq hasilat həcminin 32,5 milyon barel səviyyəsində məhdudlaşdırılması barədə razılıq əldə olunub.

YENİ MÜSAVAT
N 216 (6537) 1 oktyabr 2016

## Payızda solan sülh ümidləri, artan müharibə riskləri



# Qarabağ məsələsi ətrafında təhlükəli "U dönüşü" - kritik gəlişmə

### ABŞ münaqişənin həllinə görə məsuliyyəti Azərbaycan və Ermənistan rəhbərlərinin üstünə atdı - səbəb; Rusiyanın da ləngiyən təşəbbüskarlığı və yaxasını kənara çəkməsi geridönməz proseslərə gətirə bilər...

**"Hazırda Dağlıq Qarabağ münaqişəsinin nizamlanması mümkün deyil". Belə bir bəyanatla ABŞ-ın dövlət katibi Con Kerri çıxış edib. Amerika xarici siyasət idarəsinin başçısı hesab edir ki, Azərbaycan və Ermənistan arasındakı Qarabağ konfliktinin həlli üçün şərait hələ yetişməyib.**

"Bu gün bir sıra dondurulmuş münaqişələr, o cümlədən Qarabağ münaqişəsi var ki, onların hazırda nizamlanma mümkünlüyü nəzərdən keçirilmir. İlk öncə ona görə ki, liderlər buna hazır deyillər", deyə - Con Kerri bildirib.

Bu açıqlama bir neçə mühüm məqamı ilə diqqət çəkir. Biri və birincisi odur ki, Kerri bununla Dağlıq Qarabağ ixtilafının həllinin Ağ Ev üçün ən azı, yaxın perspektivdə prioritet məsələ olmadığına açıq işarə vurub. Bu da əslində anlaşılandır.

Söhbət təkcə Amerikanın başının Suriya böhranına, İŞİD-ə qarışmasından getmir. Həm də ondan gedir ki, Obama administrasiyasının siyasi ömrü 1-2 aydan sonra bitəcək. Bu üzdən Qarabağ konflikti kimi qəliz problemin həllinə Ağ Ev hökumətinin vaxtı və diplomatik potensialı, sadəcə, yetməyə bilər.

İkincisi, ABŞ dövlət katibi son açıqlama ilə çox güman ki, bir daha münaqişənin həllində Ermənistanın müstəqil qərar verməyinin nə dərəcədə önəmli olmasına diqqət yönəltməyə çalışıb. Müstəqil qərarı isə İrəvan yalnız Moskvadan siyasi-hərbi asılılığı azaldacağı təqdirdə mümkündür. Hər halda, ABŞ-da da bilirlər ki, hazırda Ermənistan rəhbərinin Qarabağ məsələsində söz sahibliyi Azərbaycan prezidentindən fərqli olaraq, faktiki, sıfırın yanındadır.

Bu mənada Kerri "liderlər sülhə hazır deyil" sözləri ilə həm də Rusiyanın sülhə hazır olmadığını bəyan edib. Çünki Qarabağa dair danışıqlarda Ermənistanı, faktiki, Rusiya əvəz edir və problemin çözümündə ABŞ-ın da öncələr etiraf elədiyi kimi, Moskva həlledici amil rolundadır.

Rusiya isə belə görünür, ABŞ kimi yaxasını kənara çəkib, danışıqlar prosesində dönüş olmaq üçün işğalçı tərəfə ciddi təzyiq göstərmək həvəsində deyil. Əksinə, son vaxtlar Ermənistanın təhlükəsizliyini gücləndirmək yönündə addımlar atmağa, ona müəyyən təhlükəli silahlar ötürməyə başlayıb.

*****

ABŞ-la Rusiya arasında Suriya böhranına görə son həftələr güclənən ixtilaf da Qarabağ münaqişəsinin həllinə özünəməxsus neqativ təsirini göstərməkdədir. Hər necə olmasa, iki qlobal güc arasında Suriya anlaşması başqa konfliktlərin həlli üçün də münbit siyasi atmosfer yarada bilərdi. Bu isə yoxdur. O üzdən də Rusiya "həyati maraqlar" zonası saydığı bölgələrdə, o sırada Güney Qafqazda özünü əziyyətə salmaq istəmir. "Qum saatı" isə artıq işə düşüb, qızıldan qiymətli vaxt gedir.

Başqa yandan, Kreml yəqin onu da ciddiyə alır ki, Dağlıq Qarabağ ixtilafının hər hansı formada həlli, yaxud savaş variantının gündəmdən çıxması Rusiyanın silah bazarına neqativ təsir edəcək; Azərbaycanın rus silahlarına daha əvvəlki tək ehtiyacı qalmayacaq. Bu isə ilbəil sərtləşən sanksiyalardan əziyyət çəkən kasad Rusiya büdcəsi üçün əlavə maliyyə itkisidir. Yeri gəlmişkən, iddialara görə, Moskva "İsgəndər" qalmaqalı ilə Azərbaycanı da bu silahlardan almaq zorunda qoyub, "qabağa düşmək" niyyətindədir.

Ancaq Rusiya istəsə də, istəməsə də, Qarabağ konflikti artıq elə səviyyəyə çatıb ki, onu heç olmasa, təcili şəkildə "yumşaltmaq" qaçılmazdır. Əks halda, yeni və qat-qat dağıdıcı müharibədən yayınmaq heç kimə müyəssər olmayacaq. Budəfəki müharibəni Moskvanın dayandıra biləcəyi də mümkünsüz hesab edilir. Bölgənin alovlanması isə öncəliklə Rusiya və onun regiondakı maraqları üçün böyük təhdidlər yaradacaq.

Nəzərə alsaq ki, belə vəziyyətdən, - xüsusən də İŞİD-in axırına çıxıldıqdan sonra, - beynəlxalq terror təşkilatları da Rusiya əleyhinə yararlanacaq, o zaman mənzərə aydın olar. Yeri gəlmişkən, bugünlərdə Rusiya kəşfiyyatının başçısı Aleksandr Bortnikov Bakıda bəyan elədi ki, Yaxın Şərqdəki terror təşkilatlarının rəhbərləri öz fəaliyyətlərini Şimali Qafqaza keçirməyə hazırlaşırlar. Rusiyaya analoji xəbərdarlıqla ABŞ da çıxış edib.

*****

Sözü ona gətiririk ki, Qarabağ münaqişəsinin sonsuzadək və süni şəkildə uzadılması nə ABŞ-ın, nə də ələlxüsus şimal qonşumuzun strateji maraqlarına cavab verə bilməz. Ən azından məntiq bunu deyir. Ekspertlər də Moskvanın tələsməli olması qənaətindədir.

**"Payızda danışıqlar prosesi başlamalı, 5 rayonun geri qaytarılması məsələsi müzakirə edilməlidir. Lakin Rusiya bu prosesləri öz üzərinə götürsə də, hələ ki hərəkətə keçməyib. Üstəlik, Ermənistana yeni dağıdıcı tipli silahlar verilir. Belə olan surətdə Azərbaycan təsirli cavab tədbirləri görməklə düşmən üzərində hərbi, siyasi və psixoloji üstünlüyünü heç zaman əldən verməyəcək".**

Bu sözləri axar.az-a açıqlamasında **politoloq Qabil Hüseynli** deyib. Sabiq dövlət müşavirinə görə, Azərbaycanın qardaş Türkiyədən alacağı yarımballistik raketlər dağıdıcı gücünə görə heç də Rusiyanın Ermənistana verdiyi silahlardan geri qalmır: "Azərbaycanda Müdafiə Sənayesinin yeni bir sahəsi - raketqayırma sənayesi formalaşmaqdadır və bazası da artıq yaradılıb. Azərbaycan 280 kilometr məsafəyə uça bilən raketlərin istehsalını layihələndirib. Ümumiyyətlə, ilin sonunadək 120 adda yeni hərbi məmulatın hazırlığı və istehsalı nəzərdə tutulur ki, bu da ölkənin müdafiə sənayesini çox yüksək bir səviyyəyə çatdıracaq. Əlbəttə, Azərbaycan Ermənistana verilən "İsgəndər"lərlə bağlı Rusiya ilə diplomatik kanallar vasitəsilə fikir mübadiləsi aparır və bu raketlərin təyinatının dəyişdirilməsi, yəni Azərbaycana qarşı istifadə edilməməsi istiqamətində Moskvadan təminat almaq istəyir. Azərbaycanın sözügedən raketlərdən bir neçəsini alması da istisna deyil. Düşmənin təkcə Qarabağda deyil, Ermənistan ərazisindəki bütün hərbi obyektləri də ciddi nəzarət altıdadır. Biz buna məcburuq, çünki payızda danışıqlar prosesi başlayacaq".

**Proseslərin gedişatını dəyərləndirən ekspert bu arada çox önəmli bir məqama, separatçıların Moskvada gözlənilən görüşünün qəfil təxirə salınmasının pərdəarxasına da işıq salıb:** "Bu görüşü qeyri-hökumət təşkilatının keçirdiyi deyilsə də, bu mümkünsüzdür. Bu, dövlət xətti ilə həyata keçirilən tədbirdir, Azərbaycan, Gürcüstan və Moldovada da ciddi etiraz doğurub. Qərb ölkələri artıq həyəcan içərisindədirlər ki, Rusiya postsovet məkanındakı münaqişələri qızışdırmaqla yanaşı, indi də Avropaya barmaq uzadır. Qərbin Rusiyaya qarşı qəzəbi hədsiz artıb. Amerikanın Rusiya olan münasibəti hər gün daha da pisləşir. ABŞ və AB artıq Rusiyaya ultimativ xarakterli xəbərdarlıqlar göndərib. Kerri çıxışında qeyd etdi ki, heç də uzaq olmayan bir zamanda İŞİD darmadağın edildikdə bundan canını qurtaran müəyyən qüvvələr Şimali Qafqaza toplaşacaqlar. Amerika kəşfiyyatının məlumatına əsasən, Gürcüstan, Çeçenistan və Dağıstandan olan İŞİD-çilər təşkilatın qərargahını Rusiyaya keçirə bilərlər. Əlbəttə ki, bunu alqışlamaq olmaz, çünki İŞİD təkcə Rusiya üçün deyil, bütün post-sovet məkanı üçün təhlükəlidir".

*****

Moskvada separatçıların toplantısının ləğv olunması sözsüz ki, rəsmi Moskvanın iradəsi əsasında olub və öncə də vurğuladığımız kimi, Bakıya qarşı xoşməramlı jest sayıla bilər. Lakin bu kimi jestlər Qarabağ konfliktinin təzədən hərbi fazaya keçməsi üçün yetərli deyil. Müharibəni önləmək, danışıqları dalandan çıxarmaq imkanları isə ABŞ-dan fərqli olaraq, Rusiyada qat-qat çoxdur. Hələ ki çoxdur...

❑ **Siyasət şöbəsi**

---

# Müharibə yaza qaldı?



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Bu gün - oktyabrın 1-i hərbi ekspertlərə görə, döyüş əməliyyatları üçün ən əlverişli sayılan dönəm bitir. Yəni Qarabağ münaqişəsi zonasında yeni hərbi toqquşma ehtimalı sırf mövsüm amili səbəbindən azalmış hesab edilir. Ancaq bu, o demək deyil ki, müharibə ehtimalı yaza kimi bütünlüklə gündəmdən çıxmış olacaq.**

Xeyr. Konflikt zonasında indiki status-kvo süni şəkildə, daha çox işğalçı tərəfin istəyi ilə davam etdikcə, sülh prosesində real dönüş ləngidikcə, müharibə amili də aktuallığını qoruyub saxlayacaq - həmişə, bütün fəsillərdə. Çünki Azərbaycan işğal rejimi ilə əbədi olaraq barışmaq fikrində deyil.

Sözsüz ki, işğalçının əsas himayədarı olan Rusiya əraziləri silah gücünə azad eləmək yolunda Azərbaycana ən ciddi əngəl, çəkindirici faktordur. Biz bunu şübhəsiz, daima göz önünə almaq zorundayıq. Eyni zamanda Rusiyadan siyasi-hərbi asılılığımızı azaltmağa, hərbi qüdrətimizi durmadan artırmağa da çalışmalıyıq.

Yeri gəlmişkən, gələn il üçün hərbi xərclərimiz son illər ərzində ilk dəfə minimal səviyyədə - təxminən 1 milyard dollar həcmində müəyyən edilib. Səbəbi hamı bilir - neftin ucuzlaşması və iqtisadiyyatımızdakı problemlər. Neftin qiyməti bizdən asılı deyil. Deməli, ölkə iqtisadiyyatını gücləndirmək - hökumətin ən böyük prioriteti olmalıdır. Yolu, resepti çoxdan bəlli. Velosipedi təzədən kəşf etməyə lüzum yox. Həm də tələsməliyik. Çünki iqtisadi islahatlar imitasiya, kağızçılıq xoşlamır, arsenalımızdakı bəzi silahlar isə illər ötdükcə köhnəlir.

O ki qaldı müdafiə xərclərinə, əslində bir ölkənin hərbi potensialı silahların sayı ilə yox, onların keyfiyyəti və çeşidi ilə ölçülür. Hərbi ekspertlər isə bu qənaətdədir ki, Azərbaycan Ordusu 2017-ci il büdcəsindəki ayırmalara kimi yetərli səviyyədə müasir döyüş maşınları və silah-sursatla təmin edilib. Üstəlik, son illər Azərbaycan özü bəzi silah növləri və qurğuların, o cümlədən "Zərbə" pilotsuz uçan təyyarələrin istehsalına başlayıb ki, bu da bahalı ixraca ehtiyacı müəyyən qədər azaldır.

Söhbət də ondan gedir ki, Azərbaycan bundan sonra hərbi xərclərə ayrılan vəsaiti maksimum səmərəli, yəni şəffaf şəkildə, korrupsiya olmadan istifadə etmək haqda düşünməlidir. Digər mühüm və prioritet məsələ - milli hərbi sənayemizi inkişaf etdirmək, öz hərbi parkımızı bacardıqca yerli məhsullar hesabına formalaşdırmaq olmalıdır. Bu, iqtisadi-sosial baxımdan da sərfəlidir, çünki yeni iş yerləri deməkdir.

Üçüncü yandan, ən keyfiyyətli hərbi məhsullarımızı, misal üçün, pilotsuz uçan təyyarələrimizi xaricə satmaqla əlavə vəsait əldə eləmək, həmin vəsaiti isə təzədən ordunun ehtiyaclarına yönəltmək mümkündür. Unutmayaq ki, işğalçı Ermənistanın belə imkanları yoxdur və yaxın perspektivdə gözlənilmir. Nədən ki, bu marionet ölkə nəinki hərbi və təhlükəsizlik baxımından Rusiyadan asılıdır *(Ermənistanın sərhədlərinin böyük hissəsini belə rus əsgərləri qoruyur),* həmçinin, iqtisadiyyatı, energetika və bank sistemi bütünlüklə Moskvanın nəzarətindədir.

Qısası, Ermənistan sözün bütün mənalarında rusun himayəsində, daha dəqiqi, girovluğundadır. Bu vəziyyət Azərbaycan üçün həm də unikal üstünlük və şans yaradır. O mənada ki, fors-major vəziyyətdə, Rusiyanın "ayağının büdrəyəcəyi" məqamda işğalçı Ermənistan qəfildən hərbi və iqtisadi cəhətcə ondan qat-qat güclü Azərbaycanla üzbəüz qalacaq. Onun isə bu fərqi aradan qaldırmağa nə vaxtı, nə də ən əsası, resursu olacaq. Sonrası bəllidir...

Əlbəttə, normal insan müharibə arzulamaz. Biz yeni şəhidlər də istəmirik, çünki zabit-əsgər heyətimiz əsasən gənclərdən ibarətdir, gənc ailə başçıları, gələcək atalardır, kəsəsi, ölkə genofondunun qaymağıdır. Ancaq nə edəsən ki, sülh üçün gərəkdir müharibəyə də hazır olasan. Bu müharibə heç vaxt olmaya bilər, əgər Kreml Qarabağ məsələsində nəhayət, obyektiv mövqe tutsa, oyun oynamasa.

Siyasi və hərbi ekspertlərə görə, Rusiya da Qarabağda müharibə istəmir. Elə isə zəhmət çəkib işğalçıya ağlını başına yığmağa kömək eləsin. Əks halda, ermənilər üçün payız sakit keçsə də, növbəti bahar qanlı-qadalı başlayacaq.

## ABŞ İlqar Məmmədovu niyə türmədən çıxara bilmir?

**Erkin Qədirli:** “O, prezidentliyə iddialı olduğundan beynəlxalq təşkilatlar üçün bu hal əlavə çətinlik yaradır”

**Mehman Əliyev:** “Hakimiyyətlə İlqar Məmmədov arasında şəxsi problem var”


İlqar Məmmədov

**REAL Hərəkatının icra katibi Natiq Cəfərli “Yeni Müsavat”a açıqlamasında azadlığa çıxmasında ABŞ səfirliyinin rolunu yüksək qiymətləndirib. Bundan daha öncə isə mətbuatda jurnalist Xədicə İsmayılın həbsdən azad olunmasında ABŞ Dövlət Departamentinin rolu vurğulanırdı.**

Bəs görəsən, bir çox siyasi məhbusların azad olunmasında rol oynayan ABŞ hökuməti REAL-ın lideri İlqar Məmmədovun həbsdən çıxmasına niyə nail ola bilmir?

Bununla bağlı sualımızı cavablandırarkən Natiq Cəfərli bildirmişdi ki, İlqar Məmmədovla bağlı ABŞ, Avropa Birliyi, Avropanın müxtəlif ölkələrinin dəfələrlə bəyanatı olub: “Bu yaxınlarda bununla bağlı ABŞ Dövlət Departamentinin 6-cı qərarı çıxdı. Ümid edirik ki, bu qərarların yaxın gələcəkdə bir bəhrəsi olacaq və İlqar Məmmədovun 3 il 8 aydır ki, qeyri-qanuni həbsdə saxlanılmasına son veriləcək. ABŞ səfiri də mənimlə görüşündə bununla bağlı ümidli olduğunu bildirdi”.

İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova ilə əlaqə saxladıq. O, ABŞ səfirliyi tərəfindən İlqar Məmmədovun azadlığa çıxması ilə bağlı hər hansı iş aparılmasından xəbərsiz olduğunu bildirdi.

İlqar Məmmədovun vəkili Fuad Ağayev də bu haqda məlumatsız olduğunu deyib.

**REAL Hərəkatının Məclis sədri Erkin Qədirli xarici dövlətlərin İlqar Məmmədovun azadlığa çıxması ilə bağlı məsələdə hökumətə təzyiq göstərməkdən çəkindiyini diqqətə çatdırıb:** “İlqar Məmmədov müxalif siyasi təşkilatın, REAL-ın lideridir, prezidentliyə iddialıdır. Başqa siyasi məhbuslardan fərqli olaraq, beynəlxalq təşkilatlar üçün bu hal əlavə çətinlik yaradır. İlqar Məmmədovun prezidentliyə iddialı olması beynəlxalq təşkilatları və xarici dövlətləri İlqar Məmmədovun açıq müdafiəsinə girişməkdən çəkindirir. Onlara elə gəlir ki, İlqar Məmmədovu açıq və israrla müdafiə etməklə ölkəmizin siyasi səhnəsində İlqar Məmmədovun və REAL-ın tərəfini tutmuş kimi görünə bilərlər. Onlarsa bunu istəmir”.

**“Turan” informasiya agentliyinin rəhbəri Mehman Əliyev də “Yeni Müsavat”a açıqlamasında vurğulayıb ki, İlqar Məmmədovun azad olunması ilə bağlı əsas problem onun prezidentliyə iddialı olmasıdır:** “Xədicə İsmayıl AzadlıqRadiosu-nun əməkdaşı olub, bu da Amerika üçün prinsipial məsələ idi. Natiq Cəfərli ilə bağlı isə elə də böyük problem yox idi. Referendum ərəfəsində onun həbsdən buraxılması bir jest kimi qiymətləndirilə bilər. Burada məhkəmə qərarı da yox idi, sadəcə olaraq, saxlanılmışdı. Ona görə də azadlığa buraxılması mümkün idi. İlqar Məmmədovla bağlı məsələ isə daha ciddidir. Hakimiyyətlə İlqar Məmmədov arasında şəxsi problem var. Xarici təşkilatlar da bunu başa düşürlər”.

❑ Nərgiz LİFTİYEVA

## “Başqa dövlətlərin xadimlərinin işimizə qarışmasına imkan yaratmamalıyıq”


Allahşükür Paşazadə

**“Görürəm, bəziləri narahat olur, mənə bəzi ölkələrdən gələn turistlərlə bağlı sual verirlər. Mən turist axınının əleyhinə deyiləm, ümumi inkişafın tərəfdarıyam”.**

APA-nın məlumatına görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə deyib.

“Amma gələn adamlar bizim daxili işimizə, dini məsələlərimizə qarışırlarsa, bəzi fikirləri söyləyirlərsə ki, hansısa məsələlər düzgün deyil, bu, bizə gələcəkdə böyük çətinliklər yarada bilər. Ola bilsin ki, bu gün biz onu görməyək. Amma 5-10 ildən sonra bu, cavanlarımıza öz təsirini göstərə bilər. Bunun qarşısını almaq lazımdır və buna qarşı dövlətin tədbiri olmalıdır. Bizim mənəvi həyatımızı itirməyə ixtiyarımız yoxdur. Bizim nəyimiz varsa, Azərbaycanındır. Mən sünni kimi, şiə kimi yaşayıramsa, bu, mənimdir. Xalqım bunu bəyənib, başqa dövlətlərin xadimlərinin, siyasətçilərin işimizə qarışmasına imkan yaratmamalıyıq”, - deyə o vurğulayıb.

## Azərbaycanda Gülən tərəfdarlarına qarşı əməliyyatlar dayandırıldımı...

**Arzu Nağıyev:** “Bu həbsləri radikal və digər qrupların dini təhdidinin zərərsizləşdirilməsi kimi qəbul etmək lazımdır”

**Bu ilin avqustunda Azərbaycanda Fətullah Gülən tərəfdarlarına qarşı cinayət işinin açılmasından sonra əməliyyatlar çərçivəsində bir sıra adamlar həbs edildi. İndiyə qədər həbs edilənlərin sayı dəqiq açıqlanmasa da, əməliyyatın bu yaxınlaradək getdiyi məlumdur. Proses çərçivəsində AXCP sədrinin köməkçisi Faiq Əmirov da saxlanılıb, barəsində cinayət işi başlayıb.**


Arzu Nağıyev

Son günlərdə isə Gülən məsələsinin gündəmdən düşdüyü müşahidə olunur. Açılan cinayət işinin gedişatı barədə də açıqlama verilmir. Əməliyyatların dayandırıldığı da iddia olunur. Maraqlıdır ki, qardaş Türkiyədə də iyulun 15-i gecəsindən Gülən tərəfdarlarına qarşı aparılan araşdırmalar və onların həbs edilməsi əməliyyatları sentyabrın sonlarına doğru zəiflədi. Hazırda Türkiyədə də bu məsələ haqda telekanallar əvvəlki kimi müzakirələr aparmır. Ekspertlər bu halın ölkəmizə də təsir etdiyini düşünürlər.

**Sabiq MTN polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl FETÖ-nün Azərbaycanda terror təşkilatı kimi tanınmadığını qeyd etdi:** “FETÖ adlanan təşkilatın daxilində gülənçilər, nurçular var idi. Əgər onların əməlində konkret cinayət tərkibi varsa, nədən ibarət olduğu öncəliklə açıqlanmalıdır. Həbs edilən şəxslərin nə işlə məşğul olduqları deyilməlidir. Konkret dövlətə qarşımı çıxıblar, yaxud konstitusion quruluşu dəyişməkmi istəyiblər, hansısa bir cinayətin törədilməsində təşkil olunan plandamı iştirak ediblər? Bütün bunların hamısı söylənməlidir. Bu şəxslərin cinayəti varsa, izah edilməlidir. Bütün bunların hamısı mən və ictimaiyyət üçün qaranlıqdır. Əgər profilaktik tədbirlər görülürsə, burada həbs-qətimkan tədbirindən söhbət gedə bilməz. Çünki həbs-qətimkan tədbiri seçilirsə, konkret cinayətdə şübhəli bilinirlər. Ona görə də istərdik ki, bunlara aydınlıq gətirilsin”.

**Ekspert Türkiyədə bu istiqamətdə proseslərin səngiməsinin Azərbaycana təsir etdiyi qənaətindədir:** “Əməliyyatların Azərbaycanda səngiməsinə səbəb Türkiyə təsiridir. İki il bundan əvvəl də belə bir vəziyyət yaranmışdı. Amma o zaman belə hallar olmamışdı. 15 iyuldan sonra tamam başqa situasiyadır. Sanki Türkiyənin xətrinə dəyməmək üçün nəsə etməyə çalışırlar. Türkiyədə baş verənləri dövlət çevrilişi ilə bağlayıb 32 min adam həbs edirlər, amma Azərbaycanda belə hallar yoxdur. Ona görə deyirəm ki, həbs edirlərsə, səbəblərini açıqlasınlar. Onların əməllərini bizlərə desinlər, biz də bilək”.

**Siyasi şərhçi Arzu Nağıyev bildirdi ki, Türkiyədə FETÖ ilə bağlı əməliyyatlar Azərbaycana da ciddi təsir edib:** “Universitetlərdə yerdəyişmələr, həbslər və müxtəlif əməliyyatlar həyata keçirildi. Düşünürəm ki, bunu tək FETÖ adı ilə bağlamaq düzgün olmazdı. Bunu radikal və digər qrupların dini təhdidinin zərərsizləşdirilməsi kimi qəbul etmək lazımdır. Nə qədər təhdidlər varsa, düşünürəm ki, belə əməliyyatlar davam edəcək və etməlidir də. Əməliyyat-axtarış tədbirləri davam etdiriləcək. Üzə çıxan hər hansı bir fakt olsa, əməliyyatların davam etdirilməsi zərurəti yaranacaq. Bu gün desək ki, bu məsələlər bitdi, bu inandırıcı görünməz. Türkiyədə dövlət çevrilişinə cəhddə adı keçənlər, bu proseslərdə iştirak edənlər mütəmadi olaraq istintaqa cəlb olunurlar. Dindiriləndən sonra onlarla bağlı ya həbs, ya da digər tədbirlər həyata keçirilir. Eyni situasiya düşünürəm ki, Azərbaycanda da olacaq”.

Baş Prokurorluğun məsələ ilə bağlı mövqeyini almağa çalışsaq da, bu mümkün olmadı.

❑ Cavanşir ABBASLI

## Roma Papası Azərbaycana gəlir

**Roma Papası Fransisk bu gün Gürcüstan və Azərbaycana üç günlük səfərə başlayır. “Report” Vatikanın mətbuat xidmətinə istinadən xəbər verir ki, səfər zamanı pontifik hər iki ölkənin siyasi və dini liderləri ilə görüşəcək.**



Dünən Papa Tbilisiyə gəlib. Hava limanındakı rəsmi qarşılanma mərasimindən sonra Fransisk Prezident sarayına gedərək Gürcüstan dövlət başçısı Giorgi Marqvelaşvili ilə görüşüb. Görüşdən sonra Papa və prezident Prezident Sarayının həyətindən hökumət, vətəndaş cəmiyyəti və diplomatik korpusun nümayəndələrinə müraciət edib.

Oktyabrın 1-də Papa Mixeil Mesxi adına stadionda Müqəddəs ayin həyata keçirəcək. Liturgiyadan sonra Müqəddəs Ata Gürcüstandakı katolik kilsənin keşişləri və xidmətçiləri ilə görüşəcək.

Oktyabrın 2-də səhər saatlarında dini lider Tbilisidən Bakıya gələcək. Onun Azərbaycana səfəri Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi kilsəsində dini ayinlə (messa) başlayacaq.

Ardından pontifik Azərbaycan prezidenti İlham Əliyevlə görüşü, Şəhidlər Xiyabanına getməsi, eləcə də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsi və yəhudi icmasının nümayəndələri ilə görüşləri planlaşdırılır.

Elə həmin gün axşam Fransisk Vatikana qayıdacaq.

YENİ MÜSAVAT
N 216 (6537) 1 oktyabr 2016

**İsrailin sabiq prezidenti Şimon Peres sentyabrın 30-da Təl-Əvivdə dəfn edildi. Mərasimdə ABŞ prezidenti Barak Obama ilə yanaşı bir sıra dövlət xadimləri iştirak edib. Dəfn mərasiminə Azərbaycanın nümayəndə heyəti də qatılıb. Nümayəndə heyətinə baş nazirin müavini Elçin Əfəndiyev rəhbərlik edib.**

# Müxalifət başsağlığı üçün İsrail səfirliyinə gedəcək

## Sərdar Cəlaloğlu: "Peres ancaq öz ölkəsi üçün hər şey etmiş siyasətçi sayıla bilər"

## Əli Əliyev: "Albert Araqunovun xatirəsinə ehtiram əlaməti olaraq..."

Ş.Peresin vəfatı münasibətilə prezident İlham Əliyev isə Bakıdakı İsrail səfirliyinə gedib başsağlığı verib.

Müxalifət partiyalarından başsağlığı üçün İsrail səfirliyinə gedənin olub-olmadığını araşdırdıq.

**ADP sədri Sərdar Cəlaloğlu** başsağlığı vermək üçün İsrail səfirliyinə getmədiyini və getmək fikrində olmadığını dedi. Səbəbini isə belə izah etdi: "İsrail səfirliyi Azərbaycanda fəaliyyətə başlayandan indiyə qədər bir dəfə olsun Azərbaycan müxalifəti ilə hər hansı təmas qurmayıb. Azərbaycan müxalifətinin nə problemləri ilə maraqlanıb, nə bir siyasi əməkdaşlıq təklif edib. Birinci səbəb budur. İkincisi, Şimon Peres hakimiyyəti dövründə İslam aləminə qarşı, türk dünyasına qarşı açıq-aşkar bir düşmənçilik siyasəti aparıb. Milyonlarla insanın öz ölkəsini tərk etməsinə, eləcə də çoxlu sayda müsəlmanın məhv olmasına gətirib çıxaran siyasət yürüdüb. Bütün bunlar onu göstərir ki, bu adamın siyasi fəaliyyəti bizim üçün və dünya üçün elə bir müsbət əhəmiyyətə malik olmayıb. Müsbət əhəmiyyətə malik olsaydı, Peresin də ölümünə Nelson Mandelanın, bəzi ABŞ prezidentlərinin ölümü kimi reaksiya verərdik. Peres öz ölkəsi üçün hər şey etmiş siyasətçi sayıla bilər. Lakin öz ölkəsi üçün hər şey edərkən başqalarının hüquqları pozulub, yaşamaq hüquqları belə əlindən alınıb. Biz siyasi müxalifət olaraq o insanların vəfatına xüsusi münasibət göstəririk və xatirəsini yad edirik ki, onların fəaliyyəti bizim apardığımız demokratiya və azadlıq uğrunda mübarizəyə bu və ya başqa şəkildə uyğun olsun. Biz sağlığında Peresin hansı siyasətini dəstəkləyirdik ki, bu gün vəfatına görə də gedək İsrail səfirliyinə başsağlığı verək?!"

**S.Cəlaloğlunun fikrincə, Azərbaycan hakimiyyətinin Ş.Peresin dəfn mərasiminə baş nazirin müavinini göndərməsinin də səbəbləri var:** "Bir neçə səbəbləri var. Eldar Mahmudovun ölkədə dövlət çevrilişinə hazırlaşdığı və İsraillə əlaqəsi olduğu ilə bağlı məlumatlar yayılmışdı. Görünür, bu məlumatlarda həqiqət payı var imiş və hakimiyyət də bundan narazı qalıb. İkinci səbəb odur ki, Azərbaycan hakimiyyəti İran, Türkiyə və Rusiya ilə sıx əməkdaşlıqdadır. Hər üç ölkənin bu gün İsraillə münasibətləri soyuqdur. Ola bilsin ki, hakimiyyət bu üç dövlətin münasibətini nəzərə alaraq Peresin dəfnində daha yüksək səviyyədə təmsil olunmamağa üstünlük verib".

**Müsavat Partiyasından** isə bildirildi ki, rəhbərlikdən İsrail səfirliyinə gedən olmayıb.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, İsrail səfirliyinə gedib Peresin vəfatı ilə əlaqədar başsağlığı verəcək.

İ.Ağazadə hesab edir ki, Azərbaycanın baş nazirin müavini səviyyəsində Peresin dəfn mərasiminə qatılması İsrail dövlətinə bir sıra müsəlman dövlətlərinin məlum münasibəti ilə bağlı ola bilər: "Rəsmi Bakı ehtiyatlı mövqe tutur. Hesab edirəm ki, əslində bu doğru mövqe deyil. Azərbaycan İsraillə daha sıx münasibətlər qurmalıdır".

**VİP sədri Əli Əliyev qeyd etdi ki, Şimon Peresin xatirəsini yad etmək üçün İsrail səfirliyinə gedəcək:** "Şimon Peres dünya siyasətinin mogikanlarından, dünya siyasətində özünəməxsus ağırlığı olan siyasətçilərdən idi. İsrail-Fələstin münasibətlərində "2 millət, 2 dövlət" formulunun müəllifi kimi yadda qalıb. Yaxın Şərqin ən əski probleminin çözümündə bu formul barışın və sabitliyin əldə olunması üçün çox münasib ola biləcək düstur idi. Təəssüf olsun ki, bu gün tərəflər o mövqedən xeyli uzaqlaşıblar. Bugünkü İsrail siyasətçiləri Peresin mövqeyinə yaxınlaşa bilmir, ictimaiyyət isə Peres kimi birisini müəyyənləşdirə bilmir. Peresin dəfni bu gün 70 dövlətdən rəsmi heyətlərin iştirakı ilə keçirildi. İsrailin Bakıdakı nümayəndəliyinə getməyi düşünürəm. İsrail bir çox məsələlərdə Azərbaycanın rəsmi portnyoru qismində çıxış edir. Aprel döyüşlərində İsrail texnikasının köməyindən yararlandıq. Dünyanın aparıcı dövləti ABŞ-dakı yəhudi lobbisinin yardımından Dağlıq Qarabağ və digər müşküllərimizin həllində istifadə edilmə potensialı çox yüksəkdir. Azərbaycanda yaşayan, xalqımızın ayrılmaz tərkib hissəsinə çevrilmiş yəhudi mənşəli əhalimizə hörmət, Şəhidlər Xiyabanında uyuyan Azərbaycanın Milli Qəhrəmanı Albert Araqunovun xatirəsinə ehtiram əlaməti olaraq, dünyasını dəyişmiş yəhudi siyasi liderinə sayğı nümayişini maraqlarımıza uyğun görürəm".







**Qeyd edək ki, İsrailin 9-cu prezidenti Şimon Peres sentyabrın 28-də 94 yaşında vəfat edib.**

❑ Etibar SEYİDAĞA

# İsrail-Fələstin münasibətlərində tarixi olay

## Mahmud Abbasın Peresin dəfnində iştirakı nəyə işarədir? Ekspertlər olayı şərh edirlər...

**Sentyabrın 28-də vəfat edən İsrailin keçmiş prezidenti Şimon Peresin dəfn mərasimində Fələstinin dövlət başçısı Mahmud Abbasın iştirakı tarixə həkk olundu. Fələstin rəhbərinin bu jestini ekspertlər gələcək baxımından müsbət qiymətləndirirlər. İsrailin baş naziri Benyamin Netanyahu ilə Fələstin lideri arasında dəfn mərasimi zamanı olan səmimi görüş isə gələcəyə mesaj kimi qiymətləndirilir.**



Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev bildirdi ki, Fələstin rəhbərinin dəfn mərasimindəki iştirakı dövlətlərin maraqları ilə bağlı məsələdir: "Siyasətçilər addımlarını dövlət maraqları baxımından atırlar. İstər Fələstin-İsrail münasibətləri, istərsə də dövlətlərin "Yol xəritələri" ilə bağlı daim çalışıblar ki, ölkələrin maraqları təmin olunsun, sonda sülh əldə edilsin. Barak Obamanın açıqlamasında Fələstinin ərazi bütövlüyünün tanınması ilə bağlı fikirlər səsləndirməsi, eləcə də Fələstinə İsraili dövlət kimi tanıması üçün etdiyi çağırış dediklərimizə əyani sübutdur. Mahmud Abbas liberal, praqmatik siyasətçilərdəndir. Belə jestlər həm də insani baxımdan gələcəkdə ərəblərin yəhudilərlə bir yerdə yaşamaları üçün çağırış kimi qəbul oluna bilər. Amma bu addımın hər şeyi həll edəcəyi mümkün deyil. Dövlətlərin sonrakı addımlarından çox şey asılıdır".

**Deputat Fələstinin bu addımının digər müsəlman dövlətləri tərəfindən birmənalı qarşılanmayacağına da toxundu:** "Belə məsələlərdə başqa dövlətlərin fikirləri o qədər də əsas deyil. Məsələyə duyğusal yanaşan dövlətlər daha real alternativ yol təklif etməlidirlər. Zərərçəkən Fələstin xalqıdırsa, digər dövlətlərin burada hansı mövqedə olmaları önəm daşımır. Amma hesab edirəm ki, müsəlman dövlətləri İsrail-Fələstin münasibətlərinin normal olmasında maraqlıdırlar. Çünki ölkədəki sabitlik bu problemin həllindən asılıdır. İsraillə dost münasibətində olan dövlətlər onun üçün narahatdır. Çünki bölgədə idarə olunması çətin olan dövlətlər meydana çıxmağa başlayıb. "Ərəb baharı" adı ilə baş verən proseslər Hillari Klintonun dili ilə desək, nəzərə alınmayan nəticələrlə bitir. Ona görə də İsrailin taleyi sual altına düşə bilər. Bu baxımdan, münasibətlərin düzəlməsi əksər dövlətlərə, o cümlədən Amerikaya da sərf edir".

**Dini ekspert Kənan Rövşənoğlu M.Abbasın dəfndə iştirakının dini izahının olmadığını qeyd etdi:** "Bir insan dünyasını dəyişibsə, onun dəfnində iştirak etmək, hətta cənazə mərasimində iştirak etmək müsəlmanın vəzifələrindən biridir. Eyni zamanda dinindən asılı olmayaraq cənazəyə ehtiram müsəlmanların borcudur, bu barədə hədislər var. Amma Peresin dəfni həm də siyasi hadisədir. Dünyanın bir çox ölkələri rəsmi səviyyədə o tədbirdə iştirak edib. Mahmud Abbas İsraillə sülh danışıqlarına sadiq, Qərblə yaxından əməkdaşlıq edən "Fəth" hərəkatının lideri və hazırkı Fələstin dövlətinin başçısıdır. Onun İsraildə hansısa bir mərasimdə iştirak etməsi artıq necə deyərlər, alışmış məsələdir. Lakin Peres uzun illər İsrailə rəhbərlik etmiş və Fələstin ərazilərinin bugünkü vəziyyətinə, yəni böyük hissəsinin işğal altına düşməsinin səbəbkarlarından biri də odur. İsrail hazırda BMT qətnaməsi ilə ikiyə bölünən Fələstin ərazilərində qurulacaq Fələstin dövlətinə düşəcək 49 faizə yaxın ərazini belə qoruya bilməyib, bu torpaqların böyük qismi işğal altındadır. Eyni zamanda digər israilli liderlər kimi Peresin də "dəftərində" onlarla günahsız fələstinlinin qanı var. Belə bir adamın dəfnində iştirak, heç şübhəsiz, ərəb və müsəlman hakimiyyətləri deyil, amma xalqlar arasında böyük nifrət qazandıracaq".

**Politoloq Elxan Şahinoğlu hesab edir ki, Fələstin prezidenti dəfn mərasimində iştirak etməklə Qərbə və İsrailə göndərdiyi mesajda sülh niyyətində olduğunu göstərir:** "Mahmud Abbas haradasa öz imicini də təhlükə altına qoyaraq, Peresin dəfnində iştirak edirsə, bu, o deməkdir ki, o, İsrail və Qərbə mesaj göndərir və sülh niyyətli olduğunu göstərir. Fələstin rəhbəri bu addımı ilə onu hesablayıb ki, Qərb və İsrail onun jestini anlayar, nəhayət ki, iki dövlətin yaranmasına "yaşıl işıq" yandırar. Həm də Mahmud Abbas İsrailin baş nazirindən fərqli olaraq, Fələstində anlaşmanın tərəfdarlarından olan şəxsdir. O, İsrailin iki dövlətin yaranmasına "yaşıl işıq" yandıracağına ümid edir. Qərb tərəfindən onun bu addımının isti qəbul olunacağını düşünürəm. Onsuz da Mahmud Abbasla Qərbin çox isti münasibətləri var. Yasir Ərəfatı əvvəl terrorçu kimi, sonradan onu Fələstinin lideri kimi qəbul etdilər. Amma Mahmud Abbası ilk günlərdən belə qəbul etdilər. İndi də bu münasibətləri saxlayırlar. Avropa dövlətləri İsrailin baş naziri Netanyahudan daha çox Fələstin rəhbərinə hörmətlə yanaşırlar".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 216 (6537) 1 oktyabr 2016

# İşsiz qalan jurnalistlər...

## Onlara hansı qurum yardım etməlidir?

**Son zamanlar Azərbaycanda jurnalistlərin işsiz qalması halları geniş yayılıb. Tez-tez saytların öz fəaliyyətini dayandırması, ANS-in qapadılması işsizlər ordusuna xeyli jurnalist qazandırıb. Onların da iş yeri bağlanan kimi yeni iş yeri tapması heç də dərhal baş vermir. Bəzən bunun üçün həftələr, bəzənsə aylar keçir. Bu zaman kəsiyində isə işsiz jurnalistin kirayə, kredit, yaşam xərclərini... ödəməsi üçün hər hansı fond yoxdur. Halbuki Azərbaycanda zamanında bu istiqamətdə fəaliyyət göstərən jurnalist təşkilatı olub.**

İndi ölkəmizdə Mətbuat Şurası, KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu, eləcə də Jurnalistlərin Həmkarlar İttifaqı (JuHİ), bir neçə jurnalistlərin müdafiəsi ilə məşğul olmalı olan qurumlar fəaliyyət göstərir. Onların timsalında problemin həlli üçün hansısa addımlar atılırmı? İşsiz jurnalistlər üçün hər hansı ayırmalar, pul köçürmələri, layihə niyə yoxdur?

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev bildirdi ki, rəhbəri olduğu qurum 2001-ci ildə bu istiqamət üzrə fəaliyyət göstərib. Belə ki, təşkilatın nəzdindəki "KİV-ə və Jurnalistlərə Yardım Fondu"nda hüququnun pozulması nəticəsində işsiz qalan jurnalistlərə 3 cür yardım göstərilməsi nəzərdə tutulmuşdu:** "Bu, maliyyə yardımı , hüquqi yardım və hansısa yaradıcılıq planları olan jurnalistin planlarının maliyyələşdirilməsi idi. Məhdud həcmdə də olsa ayırmalar edilirdi. O zaman bura müxtəlif beynəlxalq fondların vəsaitləri cəlb olunurdu. İndiki şəraitdə beynəlxalq fondlar jurnalist təşkilatları və beynəlxalq qurumlar yerli jurnalist təşkilatları ilə əməkdaşlıq etmir, onlara etibar etmirlər. Amma Azərbaycanda Jurnalistlərin Həmkarlar İttifaqının belə səlahiyyətləri var. Son illər fəallaşsa da, təəssüf ki, hələ bunu edəcək gücləri yoxdur".

**A.Əliyev indiki şəraitdə sözügedən istiqamətdə jurnalistlər üçün nəsə ediləcəyinə inanmadığını dedi, onu real saymadı. Müsahibimiz bu halda jurnalistlərin özünə güman qaldığını dedi:** "İndiki halda bu istiqamətdə KİVDF nələrsə edə bilər. Doğrudur, indiki fəaliyyət çərçivələrinə daxil deyil. Onların nizamnaməsində işsiz qalan jurnalistlərə yardım göstərmək bəndi olmamalıdır. Amma bu, ayrıca bir layihə formasında həyata keçirilə bilər. Hüquqlarının pozulması nəticəsində işsiz qalan jurnalistlər - ANS-çilər buna misaldır. Əvvəllər bu, nəzərdə tutulmayıb. Bundan başqa, KİV-in rəqabətə dözmədən bazardan çıxdığına görə işsiz qalan jurnalistlər də nəzərdə tutulmalıdır".



**JuHİ sədri Müşfiq Ələsgərli isə bu mövzunun ağrılı olduğunu dedi. Onun sözlərinə görə, fəaliyyətini dayandırmış və ya işçilərinin çoxunu ixtisara salmış KİV-lərlə bağlı Əmək Məcəlləsinin 77-ci maddəsində konkret məqam yer alıb:** "Orda qeyd olunur ki, işdən çıxma səbəbindən asılı olmayaraq, əmək müqaviləsinə əsasən, işçiyə 3 ay müddətində müavinət verməlidir. Onlar yeni işə düzələnə qədər pul barədə düşünməməlidir. Çox təəssüf ki, Azərbaycanda bu maddə demək olar ki, yerinə yetirilmir. Onlara ancaq həmin ay üçün əmək haqqı verilir. O da güclə. Bundan başqa, çıxarılacaq və ya iş yeri bağlanacağı üçün işini itirəcək işçiyə bu barədə bir ay öncədən xəbərdarlıq olunmalıdır. Bu halda da işçi 4 ay maaş alaraq, yeni iş barədə düşünə bilir. 4 ay böyük zamandır. Bizdə isə xəbərdarlıq olunması prosedurana əməl olunmur. İşçiyə bu barədə qəfil deyilir. Ən yaxşı halda çıxdığı an üçün əmək haqqı ödənilir. Birinci problem bundadır".

**M.Ələsgərli dedi ki, JuHİ olaraq hər zaman jurnalistlərə çalışdıqları yerdə əmək müqaviləsi bağlamaları ilə bağlı tövsiyə edirlər:** "Ancaq bu halda işçilər sabah bu kimi hallarla qarşılaşanda hüquqlarını qorumaq mümkün olur. Hər il o statistikanı yayırıq. Təəssüf ki, jurnalistlər bu məsələdə hələ də əmək müqaviləsi məsələsinə əməl etmirlər. Sizin konkret qoyduğunuz məsələyə gəlincə, bu, jurnalist təşkilatlarının tərkibində təhlükəsizlik fondları adlanır. Adətən Həmkarlar İttifaqının tərkibində olur. Beynəlxalq Jurnalistlər Federasiyasının belə bir fondu var. Orda jurnalist hər hansı təhlükə ilə rastlaşıbsa, yerli təşkilatlara müraciət edirlər. Bu praktikadan dəfələrlə istifadə etmişik. Amma orda bir şərt var - jurnalist yardım almaq üçün təzyiqlə və məhz fəaliyyətinə görə işdən çıxarıldığını təsdiqləməlidir. Yəni jurnalist təzyiqlər nəticəsində ya işini, ya da fəaliyyətini itiribsə, bu, mümkündür. Haqqını sübut edənə qədər təhlükəsizlik fonduna müraciət edə bilər. Hər işdən ayrılan jurnalist bu təhlükəsizlik fondundan yardım ala bilmir. Çıxarılma səbəbi zorakı amillə bağlı olmalıdır".

**M.Ələsgərlinin sözlərinə görə, bu gün Azərbaycanda işdən çıxarılan jurnalist nə məhkəməyə, nə də təşkilata müraciət edir:** "Bu mübarizəni özü aparmırsa, ona kiminsə yardım etməsi real görünmür. Əslində bizim nizamnaməmiz var. Ordakı funksiyalardan biri budur ki, ekstremal duruma düşmüş jurnalistlərə yardım edilməlidir. Onların vəkillə təmin olunması, müdafiəsi və təhlükəsizlik fondu vasitəsilə yardım göstərilməsi bura aiddir. Amma nizamnamədən də görünür ki, Həmkarlar İttifaqı bu cür yardımları öz üzvləri üçün edir. Neçə illərdir ki, jurnalistlərə deyirik ki, həmkarların üzvü olun. Siz təşkilata üzv olmalı, üzvlük haqqı köçürməlisiz. Bu gün jurnalistlər üzv olmurlarsa, fond necə formalaşdırıla bilər? Bizim üzvlərimiz bu problemlə qarşılaşmırlar. Bizim üzvlərimizin sayı çoxalarsa, aldığı əmək haqqının müəyyən faizini köçürərlərsə, nə qədər işlər görülə bilər".

**JuHİ sədri onu da dedi ki, hazırda Azərbaycanda fəaliyyətini maddiyyat ucbatından dayandıran populyar, oturuşmuş KİV yoxdur. Onun dediyinə görə, çap versiyasını dayandırıb onlayn versiyaya keçmək isə həmin kateqoriyaya daxil deyil.**

❑ **Sevinc TELMANQIZI**

# 10 minlərlə hektar torpağı zəbt edən məmurların siyahısı hazırlanır

## Proses bir sıra yüksək post sahibinə baha başa gələ bilər

**Azərbaycanda əkinə yararlı iri torpaq sahələrini zəbt edən məmurların siyahısı hazırlanır.**

Bu barədə qaynarinfo.az-a Kənd Təsərrüfatı Nazirliyinə yaxın mənbələrdən məlum olub.

Məlumatda bildirilir ki, adıçəkilən nazirliklə bərabər, İqtisadiyyat Nazirliyi və Əmlak Məsələləri Dövlət Komitəsi bir neçə aydır ki, belə torpaq sahələri ilə bağlı araşdırma aparırlar.

"Təftişin ilk nəticələri heyrətamizdir. Belə məlum olur ki, əksəriyyəti yüksək vəzifəli şəxslər olmaqla, əkin sahələrini ələ keçirib, orada dəbdəbəli villalar ucaldan xeyli şəxs var. Hazırda yüz minlərlə hektar əkinə yararlı torpaq faktiki olaraq ya təyinatı üzrə tamamilə istifadəsizdir, ya da orada şəxsi mülklər, imarətlər inşa olunub", - məlumatda vurğulanır.



Qeyd edək ki, bu torpaq sahələri ilə bağlı məsələyə son vaxtlar ölkə başçısı İlham Əliyevin çıxışlarında da tez-tez toxunulur. Sonuncu dəfə bu il sentyabrın 17-də Sabirabadda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində çıxış edərkən böyük torpaq sahələrinin daha da səmərəli şəkildə dövriyyəyə buraxılacağını bildirib.

**Ölkə başçısı qeyd edib ki, məsələ ilə bağlı bu il çox ciddi təftiş aparılır:** "Bəzi torpaqlar müxtəlif adamlar tərəfindən qanunsuz olaraq zəbt edilib və o torpaqlarda heç bir fəaliyyət göstərilmir. Həmin torpaqların icarə müqavilələri ləğv edilməlidir".

Prezident bundan əvvəlki çıxışlarında böyük torpaq sahələrini zəbt edənlər arasında məmurların da olduğunu, hətta onlardan bir çoxunun adlarının da aşkarlandığını demişdi.

Bu isə saytımıza daxil olan məlumatın doğruluğunu təsdiqləyir. İstisna deyil ki, həmin məmurların adları məhz Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri ilə Əmlak Məsələləri Dövlət Komitəsinin birgə yoxlamaları nəticəsində üzə çıxarılıb.

**Qaynarinfo.az-a verilən məlumatda o da qeyd olunur ki, Azərbaycanda hətta on minlərlə hektar torpaq sahəsini ələ keçirmiş yüksək çinli məmur var. Bu qədər böyük torpaq sahəsinin onun nəyinə gərək olduğunu demək çətindir, bilinən odur ki, başda bəzi nazirlər, nazir müavinləri, icra başçıları olmaqla, zəbt olunan iri torpaqların əhəmiyyətli qismi əkilib-becərilmir. Baxmayaraq ki, onlara məhz əkin adı ilə yiyələniblər.**

"Hazırda belə şəxslərin siyahısı hazırlanır, bu isə bir çox məmurlara baha başa gələ bilər. İllərdir ki, əkinə yararlı böyük torpaq sahələrini ələ keçirmiş, onu əkin məqsədilə istifadəsiz saxlamış, bu da azmış kimi, həmin torpaqlardan başqa məqsədlər, məsələn, şəxsi imarətlər, villalar tikmək üçün yararlanmış belə məmurların sərt cəzalandırılması mümkündür. Həmin torpaqların onların əlindən alınacağı dəqiqdir, amma onlar yalnız bu torpaqları deyil, vəzifələrini də itirə bilərlər", - deyə mənbə əlavə edib.

# Bakıda məktəbdə qadınlar əlbəyaxa oldu

## Məktəbin nəzarətçisinin uşağı itələməsi valideyni özündən çıxarıb



**Səbayel rayonu, 51 saylı orta məktəbdə valideynlə məktəbin qadın nəzarətçisi arasında əlbəyaxa dava baş verib.**

Femida.az xəbər verir ki, dava nəticəsində hər iki qadın xəsarət alıb.

51 saylı orta məktəbin direktoru Lətafət Səmədova məsələ ilə bağlı aznews.az-a açıqlama verib. O bildirib ki, baş verən dava ilə bağlı hazırda hüquq-mühafizə orqanlarında araşdırma aparılır: "Məktəbin içərisində iki qaçqın məktəbi və bir idman məktəbi yerləşir. O hadisə bizim ikinci korpusda baş verib. Səhər-səhər Zəngilan 10 saylı məktəbinin birinci sinif şagirdinin anası Ağamaliyeva Ramilə uşağı dərsə gec gətirib və qapının ağzında dayanıb. Bu zaman həmin məktəbin riyaziyyat müəlliməsi Mətanət Məmmədova içəri keçmək istəyəndə bu xanım ona yol verməyib. Söhbətə qarışan nəzarətçi üzünü valideynə tutub deyib ki, "ay xanım o, məktəbin müəlliməsidir, sən onunla necə danışırsan? " Nəzarətçinin bu sözlərindən qeyzlənən valideyn onun üstünə hücum çəkərək üz-gözünü cırıb".

**Direktor bildirib ki, hadisəni eşidən kimi həmin korpusa gedib, hadisəni aktlaşdırıb:** "Nəzarətçi polisə gedib şikayət etmək istəyəndə görüb ki, valideyn də ordadır, şikayət edir".

**Qeyd edək ki, hadisə dünən səhər saatlarında baş verib. Döyülən xanımlardan biri Ağamalıyeva Ramilə hadisəni belə şərh edib:** "Bu gün səhər qızımı məktəbə aparırdım. Qızım Ayan 51 saylı orta məktəbin binasında yerləşən 10 saylı Zəngilən məktəbində 1-ci sinfə gedir. Səhər dərsə gətirəndə məktəbin qapısında dayanan nəzarətçi qadın uşağı itələdi ki, tez keçsin. Həmin vaxt uşağın başı qapıya dəydi. Özü də qapı ilə divarın arasında sıxılıb qaldı. Bu, mənim acığıma gəldi.Qadına etiraz edəndə mənə hücum çəkdi. Bunu bütün valideynlər də gördü. Uşağım qorxudan ağlayırdı. Bir ana kimi buna necə dözərdim? Ona görə də əlbəyaxa davamız oldu. Hadisə ilə bağlı artıq polisə müraciət etmişəm. Özümə də xəsarətlər yetirib".

YENİ MÜSAVAT
N 216 (6537) 1 oktyabr 2016



# Taksi sürücülərinə yeni tələb

## Nazirlik: "Taksi fəaliyyəti üçün lisenziya alınması tələbi ləğv olunub, onlar fərqlənmə nişanı almalıdır"

**Bir neçə gündür taksi fəaliyyəti ilə məşğul olan şəxslərə qarşı reydlərə başlanılacağı haqda xəbərlər dolaşır. Bu məlumatlar nə dərəcədə əsaslıdır?**

Bakı Nəqliyyat Agentliyinin (BNA) İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nuridə Allahyarova iki gün öncə modern.az-a açıqlamasında problemin yaxın vaxtlarda həll olunacağını bildirib: "Bu, uzun zamandır icrasına başladığımız məsələdir. Hələ də rəsmi qeydiyyatdan keçmədən, fərqlənmə nişanı almadan xidmət göstərən taksilər mövcuddur. Fərqlənmə nişanı olmadan xidmət göstərən şirkət, fiziki şəxs, sahibkar mütləq Bakı Nəqliyyat Agentliyinə müraciət etməlidir. Onlar müvafiq rüsumu bankda ödədikdən sonra fərqlənmə nişanı əldə edirlər. Yalnız bundan sonra agentlik fərqlənmə nişanı verir. Nişan aldıqdan sonra sadaladığınız hərc-mərclik, taksilərin istənilən şəkildə avtobus dayanacaqlarını zəbt etməsi, istədikləri qiyməti müəyyən etməsinin tənzimlənməsi kimi məsələlər prosesin ikinci mərhələsidir.

Gələcək üçün nəinki avtobuslarda, eyni zamanda taksilərdə taksometrlər quraşdırılması nəzərdə tutulub. Həmin taksometrə uyğun olaraq vətəndaş biləcək ki, bu, dövlət qeydiyyatlı taksidir. Xidmət göstərən sürücü də taksometrdə göstərilmiş yola uyğunlaşdırılmış rəqəm nümunəsində ödəniş alacaq. Bu baxımdan, rəqabətli mühit formalaşacaq".

**Agentlik rəsmisi qeyd edib ki, növbəti məsələ taksi dayanacaqları ilə bağlıdır:**

"Əslində Bakının inzibati ərazisində kifayət qədər pasportlaşdırılmış və pasportlaşdırılmamış taksi dayanacaqları var. Amma bu taksi dayanacaqlarının heç biri istifadə olunmur. Taksi sürücüləri qeyd edir ki, dayanacaqlar hökmən ticarət mərkəzlərinin önündə, metro stansiyaların çıxışlarında olmalıdır. Dünyanın heç bir ölkəsində taksilər üçün dayanacaqlar ticarət mərkəzinin, metro stansiyalarının çıxışında olmur. Yer avtobuslara mane olmamaq şərtilə ayrılır.

Bu baxımdan, tezliklə taksi dayanacaqlarının hamısı nəzərdən keçiriləcək. Standartlara uyğun olanlar taksi sürücülərinin ixtiyarına veriləcək.

Taksilərin pərakəndəliyi, avtobus dayanacaqlarına daxil olmaları, tənzimlənməyən sürət həddi tənzimlənəcək. Taksi də avtobus kimi müəyyən limit sürətə otuzdurulacaq. Çünki taksi də müntəzəm sərnişin daşınması, ictimai nəqliyyat xidmətinə aiddir. Taksi öz ailə üzvlərini deyil, xidmət göstərərək ictimaiyyətin nümayəndələrini daşıyır".

**N.Allahyarova qeyd edib ki, fərqlənmə nişanı almaq üçün sürücülər özləri agentliyə müraciət etməlidir:** "Bizim işçilər tərəfindən təyin olunarsa ki, şəxs qanunsuz taksi fəaliyyəti ilə məşğuldur, o zaman aiddiyyəti qurumlara müraciət olunacaq, barələrində cəza tədbirləri görüləcək".

**İqtisadiyyat Nazirliyindən APA-ya verilən məlumata görə isə Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli qərarına görə, taksi fəaliyyətini həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödənilməsi ilə bağlı Bakı şəhəri üzrə Bakı Nəqliyyat Agentliyindən, ölkənin digər ərazisində isə Nəqliyyat Nazirliyindən "Fərqlənmə nişanı" almalıdırlar:** "Azərbaycan prezidentinin 2015-ci il 21 dekabr tarixli "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" fərmanına və "Lisenziyalar və icazələr haqqında" 2016-cı il 15 mart tarixli qanuna əsasən, taksi fəaliyyəti üçün lisenziya alınması tələbi ləğv olunub".



# Payız leysanlarla başladı - bəs qış necə keçəcək?

## Telman Zeynalov: "Qış sərt olacaq, amma..."

**Payız fəsli gələr-gəlməz artıq "şıltaqlığını" göstərməyə başlayıb. Sentyabrın 28-də paytaxt Bakıya və digər bölgələrə yağan leysan yağışları bunu deməyə əsas verir. Hətta bir neçə gün bundan əvvəl ölkənin Şimal-Qərb bölgəsində yerləşən Qax rayonuna ilk qar da yağmışdı. Bəs görəsən, payız leysan və qarla başlayırsa, bu il qış necə keçəcək?**

Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov sualımıza bu cür aydınlıq gətirdi: "Qlobal istiləşmə ilə bağlı danışılanda daima bunun əleyhinə çıxırdım ki, heç bir qlobal istiləşmə yoxdur. Havalar gah isinir, gah soyuyur, uzağı 50-60 il bir-birini əvəz edir. Təxminən 45 ildir ki, soyuq havadan istiyə keçmə olub. İndi isə əksinə, istidən soyuğa keçid var. Bizdə yağıntıların miqdarı artıb. Bu da Sakit Okeanda olan El Ninyo cərəyanı ilə bağlıdır. Həmin cərəyan bu il sönüb, lakin suyun qızdırılması hələ də soyumur, su istiliyi özündən tez verir. Bu da onun nəticəsidir ki, indi soyuma prosesi baş verir. Açıq-aşkar şahidi olduq ki, yay ayı bu il bir aya yaxın gecikdi. İndi də ki, payız gecikir, qış da onu üstələyir. Buna görə də hələ ki biz alimlər belə dəqiq proqnoz verə bilmirik.

Lakin proqnozlar onu göstərir ki, bu il qış sərt keçəcək, amma ola bilsin ki, qar bir qədər zəif olsun. Yəni bəzi yerlədə qar yağmaya bilər, amma şaxtalı keçəcəyi ehtimal olunur.

Payız da sərin keçəcək, baxmayaraq ki, günəş çıxır. Lakin günəş isitmir, sadəcə, yer kürəsini işıqlandırır. Göründüyü kimi payızı qış üstələyir, onu qabaqlayır. Qış həm payızın vaxtını alır, həm də gələcək yazın vaxtını alacaq. Beləliklə, qış uzanır və bu da onu deməyə əsas verir ki, qış çox soyuq olacaq".

❑ **Xalidə GƏRAY**

# Yağış fəlakəti ilə üzləşən "ağ dünya"

## Bəşəriyyət hələ ki onun fəsadlarından qurtula bilmir - yağış milyonlarla insanı məhv edir, taleləri yarıda qırır və daha nələr....

**Hazırda Bakının ən böyük problemlərindən biri də yağan kimi yolları sel basmasıdır. Bu isə özlüyündə təbii ki, tıxac, elektrik enerjisinin kəsintisi, həyatın iflic olması anlamına gəlir. Su basmış mağazalar, evlər, internetin yoxluğunu da nəzərə alanda faciənin miqyasını təsəvvür etmək olur.**



### Sellər bir olmur - bizimki şəhər selidir...

Amma elmi ədəbiyyatlara nəzər salanda görünür ki, davamlı yağışlar nəticəsində bizim əslində sel adlandırdığımız təbiət hadisəsinin fərqli dərəcələri var. Necə deyərlər, hazırda Bakıda yaşanan hadisə şəhər seli kateqoriyasına aiddir. Sel fəlakəti yaranma müddətinə və yerinə görə bir-birindən fərqlənir. Yaranma müddətləri baximından 2 yerə ayrılan sellər yaranma yerinə görə 4 fərqli şəkildə ortaya çıxır.

### Yaranma müddətlərinə görə:

**Sel:** Yaranması 1 həftə, ya da ondan artıq müddətdə tamamlanır. Ani selə görə daha yavaş inkişaf edir. Çox uzun müddət də təsirli olur. Böyük çayların davamlı yağışla daşması bu sel tipinə nümunədir.

**Ani sel:** Hər yerdə hər an yarana bilir. Yaranması 6 saat davam edir. Ani sellər əsasən qüvvətli bir yağışın ardınca qısa müddət içində yaranır. Bundan başqa, güclü bir yağışdan sonra dağlıq bölgələrdəki çayların daşmağı da ani selə səbəb olur.

### Yaranma yerlərinə görə:

**Şəhər seli:** Bina, yol kimi səbəblərlə təbii bitki örtüsünün yox edilməsi şəhər selinin yaranmasının ən böyük səbəblərindən biridir. Güclü yağışlarda su torpağa sızmadığı üçün şəhər içində sellər meydana gəlir.

**Sahil seli:** Güclü yağış və sahildən uzaq bölgələrdəki alçaq təzyiq icbatından yaranan fırtınalar dənizin və ya okeanın qabarmasına səbəb olur. Qabarıq daşan dəniz və ya okean suyu böyük sellərin yaranması ilə nəticələnir.

**Dərə və çay seli:** Çay və dərələr güclü yağış, eləcə də fırtına ucbatından qabarıb daşır.

### Dünya tarixinin ən böyük yağış fəlakətləri....

Ingiltərənin yardım təşkilatı "Kristian Aid" qlobal istiləşmə üzündən 2060-cı ildə bir milyard insanın sel fəlakəti riski altındakı şəhərlərdə yaşayacağını açıqlayıb. Qurumun hazırladığı sənədə görə, ən böyük risk altında olanlar ABŞ, Çin və Hindistanın şəhərləridir. Kalküta və Mumbay isə ən böyük təhlükə altındakı şəhərlər sayılır.

Tarixi faktlar isə bu günə qədər dünyanın bir çox ölkələrində aramsız yağışlar ucbatından yaşanmış sellərin statistikasında öz əksini tapır. Siyahıya və tarixi faktlara diqqət edək:

**1.** Çinin rəsmi sənədlərdə öz yerini almış 22 böyük sel fəlakətində ümumən 5 milyona yaxın sayda insan həyatını itirib.

**2.** 1971-ci ildə Vyetnamda baş verən sel zamanı ən azı 100.000 nəfər həyatını itirib.

**3.** 1949-cu ildə Quatemalada 40.000 nəfər sel nəticəsində həyatını itirib. Ümumən daha çox yağış görən bu bölgədə böyük sel fəlakətləri yaşanır.

**4.** 1974-cü ildə Banqladeşdə ən azı 29.000 kişi ölüb. Banqladeşdə musson yağışları ucbatından yaranan sellər indiyə qədər 5 dəfə fəlakətlərə səbəb olub.

**5.** 1999-cu ildə Venesuelada Varqaz fəlakətindən 20.000-dən artıq adam ölüb. Bu fəlakətə isə şəhərsalma strukturlarındakı problemlər səbəb olub və nəticədə şəhərdə ciddi can və mal itkisi baş verib.

**6.** 2013-cü ildə Hindistanda baş verən sel fəlakəti nəticəsində 5.500-dən artıq adam ölüb. Son yüz il içində 11 sel fəlakəti görən Hindistan ümumilikdə 50.000-ə yaxın can itkisi verib.

**7.** 2011-ci ildə Braziliyada 1000 nəfər həyatını itirib. Rəsmi məlumatlara görə, 9 böyük sel fəlakəti yaşamış Braziliyada ən ağır statistika 2011-ci ildəki fəlakət zamanı ortaya çıxıb.

**8.** 1953-cü ildə Yaponiyada baş verən sel fəlakətində 2600 insan həyatını itirib.

**9.** 1900-cü illərdən öncə Hollandiya. Burada da 1 milyona yaxın insan həyatını itirib. Son yüz ildə böyük bir sel fəlakəti görməyən Hollandiya 1900-cü illərdən öncə böyük körpü, sualtı boru layihəsini həyata keçirənə qədər 1 milyondan artıq insanın ölümünə şahidlik edib.

**10.** 1962-ci ildə Peruda baş verən sel nəticəsində 5000 nəfər həyatını itirib.

Xatırladaq ki, sadaladığımız faktlar yağışlar nəticəsində baş verən sellərin yaratdığı insan təlefatının statistikasıdır. Məsələn, 2011-ci ildə Avstraliyada baş verən aramsız yağışlar nəinki insan ölümü, eyni zamanda insanların itkin düşməsi ilə müşayiət olunub. Çünki daşqın genişmiqyaslı olub, eyni zamanda 20 minədək ev su altında qalıb.

Avstraliyanın şimal-şərqində daşqınlar hələ 2010-cu ilin noyabrında başlayıb. Daha sonradan isə onun miqyası da böyüyüb. Şəhər küçələrini basan sel maşınları aparır, ağacları, dirəkləri kökündən çıxarır. Ölkə iqtisadiyyatına dəymiş zərər milyardlarla dollar qiymətləndirilir. Minlərlə əhalisi olan şəhərlər elektrik enerjisindən, içməli sudan məhrum olub.

Qonşu Türkiyədə, xüsusən də İstanbulda baş verən güclü yağışlar zamanı isə yollarda təbii fəlakətlər yaşanır.

### Yağışın xeyri... ziyanına bərabər imiş

**Alimlər isə müəyyənləşdiriblər ki, yağışın xeyri ilə ziyanı arasındakı fərq o qədər də böyük deyil. Məsələn, yağışın faydası aşağıdakılardır:**

**1.** Yer üzünün təmizlənməsini təmin edir.

**2.** Su dövriyyəsi yağış sayəsində baş verir.

**3.** Bitkilərin böyüməsini, inkişafını, yetişməsini təmin edir. Çünki yağış suyu tarla bitkiləri üçün yararlıdır, çünki onun tərkibi mineral maddələrlə zəngindir.

**4.** Yağış suyunu içmək olar. Tərkibindəki mineral maddələr baxımdan olduqca yararlıdır. Saçlara, əllərə və bədənə yağış suyu sürtmək xeyirlidir. Dərini yumşaq edir.

**Ziyanları:**

**1.** Normadan artıq yağış sel fəlakəti yaradır.

**2.** Nəqliyyat problemi əmələ gətirir.

**3.** Dərələri daşırır.

**4.** Çox yağanda bəzi tarla bitkilərinin inkişafına mane olur və hətta çürümələrinə səbəb olur.

**5.** Qışda yağış yağanda yığılan suların buzlanması da insan həyatına mənfi təsir edir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 216 (6537) 1 oktyabr 2016

# Dövlətə xəyanətdə ittiham olunan dini ilahiyyatçı azadlıqda

## Cavad Cavadov: "Sentyabr ayında ikinci Cəfərovu həbsdən azad etdirdim"



**Ötən il həbs edilən və dövlətə xəyanətdə ittiham olunan ilahiyyatçı, "Təkamül" tərcümə mərkəzinin direktoru Ceyhun Cəfərov bu gün azadlığa buraxılıb. Onun barəsindəki həbs-qətimkan qərarı istintaqın təqdimatı əsasında dəyişdirilib və ilahiyyatçı azadlığına qovuşub.**

Bu barədə sosial şəbəkələrdə C.Cəfərovun hüquqlarını qoruyan vəkil Cavad Cavadov status paylaşıb. Vəkil bunları qeyd edib: "Sentyabr ayında ikinci Cəfərovu həbsdən azad etdirdim və buna görə çox sevincliyəm. Bunun cümə günü baş verməsi isə sevincimi ikiqat artırır.

Bir il yeddi ay həbsdə saxlanılan hüquqlarını müdafiə etdiyim Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə təqsirləndirilən Cəfərov Ceyhun Məmmədəli oğlunun barəsində məhkəmə qaydasında həbs-qətimkan tədbiri sentyabrın 30-da istintaq orqanının təqdimatı əsasında dəyişdirildi və o, həbsdən azad edildi. Bizim mövqeyimiz əvvəldən sona qədər ardıcıl olaraq eyni olmuşdur. Etiraf etmək lazımdır ki, keçmiş Milli Təhlükəsizlik Nazirliyində rəhbərlik dəyişikliyindən sonra peşəkarlığın və qanunun tələblərinə riayət olunmasının səviyyəsi nəzərəçarpacaq dərəcədə artmışdır. *(DTX-nin İstintaq Təcridxanasında olan müsbət dəyişiklər barədə əvvəllər də yazmışdım: telefonla zəng vurmaq və ailələrlə görüş hüququ təmin olunmuş, kameralara televizorların quraşdırılmasına başlanılmış və s.)* İstintaqın gedişi bizdə bu iş üzrə obyektiv qərar qəbul ediləcəyinə böyük ümidlər yaradır. Hazırkı qərarın qəbul olunmasına görə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi cənab Mədət Quliyevə, bu təşkilatın istintaq orqanına və müstəntiq Cavid Quluzadəyə Ceyhun Cəfərovun və onun ailəsinin adından təşəkkürümü bildirirəm. Eyni zamanda Ceyhun Cəfərova dəstək olan hər kəsə minnətdarlığımızı bildiririk".

**Vəkil Hacı Ceyhunun kimliyi barədə də məlumat verib:** "Cəfərov Ceyhun Məmməd Əli oğlu nüfuzlu ilahiyyatçılardandır. Ərəb və fars dillərini mükəmməl bilir. Fəaliyyəti dini tədris həyata keçirmək və dini kitabların Azərbaycan dilinə tərcüməsi çərçivəsindən ibarət olmuşdur. Onun fəal iştirakı ilə onlarla kitab Azərbaycan dilinə tərcümə edilmişdir, bunlardan ən məşhurları: 20 clddən 7-si tərcümə olunan "Əl-Mizan" təsviri (müəllif: Əllamə Seyyid Məhəmməd Hüseyn Təbatəbai) , "İslamda əxlaq" (müəllif Ayətullah Məhəmmədrza Məhdəvi Kəni) . Eyni zamanda o bütün İslam dünyasında böyük uğur və rəğbət qazanmış, SPACE telekanalında yayımlanmış "Həzrəti Yusif" filminin Azərbaycan dilinə dublyaj olunmasının təşəbbüskarı və rəhbərlik edənlərdən biri idi. Bundan əlavə, o bir sıra saytların yaradıcısı idi: "quranevi.az", "tekamulteam.az", "islamaz.com" və "imamzaman.az". Ceyhun Cəfərovun məqsədi ənənəvi İslam dininin insanlara çatdırılması və radikal dini təriqətlərə qarşı mübarizə olmuşdur. 2008-ci ildə o, Azərbaycan İslam Universitetini bitirmiş, tələbə olduğu vaxtlarda həmin universitetdə "İslam əxlaqı" mövzusunda tədrislə məşğul olmuşdur".

Qeyd edək ki, ilahiyyatçı Ceyhun Cəfərov 2015-ci il martın 12-də MTN tərəfindən saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə istintaq başladılmışdı.

❑ Cavanşir ABBASLI


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Təbib Darya xanım**

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**




## Bakıda 33 yaşlı kişi bıçaqlandı

**Bakının Xətai rayonunda bıçaqlanma hadisəsi qeydə alınıb. "Report" xəbər verir ki, 1983-cü il təvəllüdlü Ceyhun Yarmətov yaşadığı General Mehmandarov küçəsi, ev 68 ünvanından çoxsaylı kəsilmiş-deşilmiş xəsarətlərlə 3 saylı Şəhər Klinik Xəstəxanasına aparılıb.**

Yaralının dindirilməsi mümkün olmayıb. Bu səbəbdən hadisənin kim tərəfindən törədildiyi hələ məlum deyil.

Faktla bağlı araşdırmalar davam etdirilir.

## Qaxda 3 tona yaxın narkotik bitki aşkarlanaraq məhv edildi

**Qax rayonunda 3 tona yaxın narkotik bitki aşkarlanaraq məhv edilib. "Report"un verdiyi xəbərə görə, narkotik bitkilər rayonun Lələli kəndi ərazisində aşkarlanıb.**

Qax Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində sözügedən kəndin ərazisində yabanı halda bitən, ümumi çəkisi 2 ton 670 kiloqram olan çətənə kolu aşkarlanaraq məhv edilib.

Faktla bağlı Qax RPŞ-də araşdırmalara başlanılıb.

## Rusiyada axtarışda olan şəxs Azərbaycanda tutuldu

**Rusiya hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan şəxs Azərbaycanda tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Şəmkir Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Rusiya Cinayət Məcəlləsinin 162-ci (quldurluq) və 163-cü (dələduzluq) maddələri ilə axtarışda olan Sabir Məmmədov tutulub.**



## Arabir yağış yağacaq, şimşək çaxacaq

**Bakı və Abşeron yarımadasında oktyabrın 1-də bəzi yerlərdə yağış yağacağı, gündüz dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-şərq küləyi əsəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 12-15° isti, gündüz 18-21° isti, Bakıda gecə 13-15° isti, gündüz 19-21° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 767 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək. Nisbi rütubət 80-90% təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza əsasən, oktyabrın 3-dək Abşeron yarımadasında meteoroloji amillərin mülayim təəddüdü meteohəssas insanlar üçün nisbətən əlverişli olsa da, rütubətli hava şəraiti bəzi insanlarda narahatlıq hissi yarada bilər.

Azərbaycanın rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı, səhər qərb rayonlarında, gündüz isə şərq rayonlarında tədricən kəsiləcəyi, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi arabir güclənəcək.

Havanın temperaturunun gecə 10-15° isti, gündüz 22-27° isti, dağlarda gecə 3-6° isti, gündüz 11-16° isti olacağı gözlənilir.l


**Elan**

**Əhmədzadə Səbuhi Musa oğlunun adına olan SX02 18332 seriyalı hərbi bilet itdiyi üçün etibarsız sayılır.**



**Elan**

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**
**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**
**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**

YENİ MÜSAVAT
N 216 (6537) 1 oktyabr 2016



# "12 mindən çox uşaq icbari təhsildən yayınıb..."

## Təhsilin durumu ilə bağlı maraqlı faktlar açıqlandı

**Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının növbəti iclası keçirilib. Mərkəzin yaydığı məlumata əsasən toplantıda ümumi təhsil pilləsinin ümumi orta təhsil səviyyəsi üzrə yeni təhsil proqramları (kurikulumları) üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsinin həyata keçirilməsi qaydalarının layihəsi, DİM və "British Council" Azərbaycan təşkilatı arasında imzalanmış Niyyət Məktubu, buraxılış sinfi şagirdlərinin təhsilə davamiyyəti və imtahan nəticələrinin müqayisəsi, DİM-in Nizamnaməsinə uyğun olaraq qurumun fəaliyyətinin təmin olunması üçün zəruri tədbirlər müzakirə olunub.**

Birinci məsələyə dair çıxış edən Direktorlar Şurasının sədri Məleykə Abbaszadə və təhsil nazirinin müavini Ceyhun Bayramov qeyd ediblər ki, sənəd Təhsil Nazirliyi və TQDK əməkdaşlarından ibarət İşçi Qrup tərəfindən işlənib hazırlanıb. Sənəddə əks olunan bir çox prinsipial məsələlərə dair razılıq əldə edilib. Hər iki qurumun nümayəndəsi vurğulayıb ki, sənəd rəsmi şəkildə qüvvəyə minənədək imtahanların məzmununa aid olan və ictimaiyyət üçün əhəmiyyət kəsb edən müddəalar barədə mətbuatda açıqlamalar verilməlidir. Sənəd ətrafında iclas iştirakçıları tərəfindən müzakirələr və fikir mübadiləsi aparılıb.

İkinci məsələ barədə danışan M.Abbaszadə bildirib ki, buraxılış sinif şagirdlərinin dərsə davamiyyəti ilə bağlı aparılan statistik təhlilin nəticələri göstərir ki, müvafiq ildə (2008-ci ildə-red) I sinfə gedən şagirdlərin təxminən 9 faizinin adları bu il IX siniflərin məlumat bazalarında aşkar edilməyib, yəni onlar icbari təhsildən yayınıblar: **"Bu, sosioloji problemdir və onun aradan qaldırılması məqsədilə məktəblərdə, eləcə də valideynlərlə ciddi iş aparılmalıdır".**

İclas iştirakçıları müzakirələr zamanı vurğulayıblar ki, bu, təkcə hansısa bir qurumun deyil, bütün cəmiyyətin qarşısında duran vacib məsələlərdəndir.

**M.Abbaszadə təhsil nazirinin müavini C.Bayramova** müraciət edərək, TQDK tərəfindən hər il hazırlanan və ölkə rəhbərliyinə təqdim olunan hesabatda nəzərə alınmaq üçün uşaqların icbari təhsildən yayınmasına dair nazirlikdə mövcud olan məlumatların təqdim olunmasını xahiş edib.

C.Bayramov mövzunu davam etdirərək başqa bir statistik təhlilin nəticələrini iclas iştirakçılarının nəzərinə çatdırıb: **"Bu il məktəbə 1 il və daha artıq gec gedənlərin sayı 10 faiz təşkil edib ki, bu da ürəkaçan rəqəm deyil. Təhsil Nazirliyi bununla bağlı hər hansı təsir mexanizminə təbii ki, malik deyil. Lakin məsələyə ötən illərlə müqayisə prizmasından yanaşsaq görərik ki, müsbət dinamika mövcuddur, yəni belə uşaqların sayı ildən-ilə azalır. Ümumiyyətlə, nazirliyin yanaşması ondan ibarətdir ki, hər hansı bir problem barədə danışdıqda onun dinamikasını müşahidə etmək daha məqsədəuyğundur".**

M.Abbaszadə üçüncü məsələyə dair qeyd edib ki, "British Council" Azərbaycan təşkilatı ilə bir neçə müddətdir ki, danışıqlar aparılırdı və əldə olunmuş razılığa əsasən, magistratura səviyyəsinə qəbul imtahanında ingilis dili komponentinin təkmilləşdirilməsi, yeni kurikuluma əsaslanan buraxılış imtahanlarında bacarıqların qiymətləndirilməsində ingilis dili fənni üzrə qabaqcıl təcrübənin tətbiqi, TQDK tərəfindən IELTS imtahanlarının keçirilməsinə dəstək və dövlət qulluğuna qəbul zamanı xarici dil biliklərinin yoxlanılmasının təkmilləşdirilməsi layihələrinin hazırlanması nəzərdə tutulub.

Sonuncu məsələyə dair M.Abbaszadə bildirib ki, bu ilin aprel ayında təsdiq edilən Dövlət İmtahan Mərkəzinin Nizamnaməsinə əsasən, DİM publik hüquqi şəxsdir (TQDK və DQMK kimi mərkəzi icra hakimiyyəti orqanı deyil) və DİM-ə müvafiq fərmanla həvalə olunan vəzifələrin həyata keçirilməsi üçün dövlət büdcəsindən maliyyə vəsaitinin ayrılması nəzərdə tutulmayıb. Bununla bağlı DİM-in fəaliyyətinin təmin olunması və ona həvalə olunan vəzifələrin həyata keçirilməsi məqsədilə müxtəlif imtahan növlərinin keçirilməsi üçün sərf olunan maliyyə vəsaiti və bir imtahan iştirakçısına düşən xərclər barədə müzakirələr aparılıb, DİM Direktorlar Şurasının üzvlərinin təklifləri dinlənilib.

Qeyd edək ki, Azərbaycanda uşaqların icbari təhsildən yayınması problemi hələ "Misir erasından", yəni Misir Mərdanov təhsil naziri olduğu dövrlərdən mövcuddur. İcbari təhsildən yayınan uşaqların sayı ilə bağlı statistika nə Statistika Komitəsi, nə Təhsil Nazirliyi tərəfindən təqdim edilmir. Bununla belə, 2008-ci ildə 1-ci sinfə təqribən 140 min uşağın getdiyi nəzərə alınarsa onlardan 12 mindən çoxunun 9-cu sinfə çatmadan məktəbdən uzaqlaşdığı məlum olur. Bu, orta hesabla hər il belə davam edir. Yəni 10 il ərzində orta hesabla 100 mindən çox uşağın icbari təhsil almadan məktəbdən uzaqlaşdığını, ölkədə savadsız kütlənin get-gedə artdığını demək olar...

# Valideyn övladının cinayət əməlinə görə məsuliyyət daşımalıdırmı?

## "Bəzi məmurların övladları düzgün tərbiyə olunmur"

**Valideynlərin (xüsusən də məmurların) övladlarının cinayət əməlinə görə məsuliyyət daşıması məsələsi artıq bir neçə ildir ki, müzakirə olunmaqdadır. Vaxtilə prezident səviyyəsində də bu məsələyə toxunulmuşdu. Müşavirələrin birində prezident qudurğan məmur övladlarına səslənərək heç kimə güvənməmələrini istəmişdi. Prezident bildirmişdi ki, övladlarına nəzarət edə bilməyən məmurlar işdən çıxarılacaq, övladlarına da cinayət işi başlanacaq.**

Bu məsələdən sonra bir neçə məmur qudurğan övladlarına görə işdən azad edilmişdi. Bu cür nümunələrdən bir neçəsini qeyd etmək olar. Məsələn, ötən illərdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədr müavini Mübariz Mədətovun oğlu Xalid Mədətov idarə etdiyi "Mercedes-Benz G-55" avtomobillə mahir tar ifaçısı Ağasəlim Abdullayevin həyat yoldaşı və azyaşlı nəvəsinin ölməsi ilə nəticələnən qəza törətmişdi. Oğlunun bu əməli nəticəsində Mübariz Mədətov işdən qovuldu, oğlu da həbs cəzası aldı.

Ötən il isə Zərdab Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Səfərov da oğlunun içkili vəziyyətdə avtomobil idarə etməsi səbəbindən vəzifəsindən azad edilmişdi.

Bugünlərdə Bakı şəhəri, Xətai rayonunda yerləşən 191 saylı orta məktəbin direktoru Rəhimə Əliyevanın oğlunun qəddarcasına törətdiyi cinayət əməlinə görə işdən çıxarılması bu mövzunu bir daha gündəmə gətirmiş oldu. Diqqət çəkən məqam isə ondan ibarətdir ki, direktorun vəzifəsindən azad edilməsi ilə bağlı təhsil naziri Mikayıl Cabbarov əmr imzalayıb. Xatırlada1 ki, R.Əliyevanın oğlu ötən il keçmiş arvadını öldürərək yandırmışdı. Mərhum isə direktorun gəlini olmaqla yanaşı, həm də qardaşı qızı olub.




İctimaiyyətdə məktəb direktorunun bu səbəbdən işindən kənarlaşdırılmasını normal hal kimi qəbul edənlər olsa da, övladlarına görə valideynlərin cəzalandırılmasının qanunsuz və məntiqsiz olduğunu iddia edənlər də var.

Qeyd edək ki, dünyanın hətta ən inkişaf etmiş ölkələrində də məmurların övladlarına görə vəzifədən uzaqlaşdırılması halları mövcuddur. Əksəriyyət düşüncələrə görə publikanın diqqət mərkəzində olan insanlar həm dözümlü, həm də nümunəvi şəxs olmalıdır. Həmin şəxs və övladları nümunəvi olmazsa onlara həvalə edilən vəzifəni də idarə edə bilməzlər. Lakin xarici ölkə nümunələrində məmurların çoxu özlərində mənəvi məsuliyyət hiss edərək öz istəkləri ilə istefa verir. Məlum olduğu kimi, ölkəmizdə bu cür istefa mədəniyyəti hələ ki mövcud deyil.

Bəs görəsən, valideynin övladının cinayət əməlinə görə məsuliyyət daşıması nə dərəcədə doğrudur?

**Deputat Fəzail Ağamalı mövzu ilə əlaqədar "Yeni Müsavat"a danışaraq məsələyə bu cür münasibət bildirdi:** "Avropa ölkələrində övlad 17 yaşına çatandan sonra çantasını yığışdırıb, ata-anası ilə vidalaşıb, öz həyatını yaşamağa gedir. Demək olar ki, valideynlərin himayəsindən çıxır, istər məmur, istərsə də adi vətəndaşın övladı olsun, fərq etmir.

Bizdə isə yanaşmalar fərqlidir. Mentalitetdən, adət-ənənədən irəli gələrək hər zaman övladımızı yanımızda görməyə çalışırıq, övladlarımız da ata-anasız özlərini təsəvvür edə bilmirlər. Və beləliklə, Azərbaycanda övlad üzərində ata-ananın təsiri çox yüksəkdir. Ona görə də valideyn çalışmalıdır ki, övladı elə tərbiyə etsin ki, həm valideyni, həm də özü üçün problem yaşatmasın. Bəzi məmurların övladları düzgün tərbiyə olunmur. Onlar var-dövlət içərisində formalaşır, gözünü açır var-dövlət görür, ona "yox" deyilmir, nə edirsə təqdir olunur, uşaq yaşlarından sükan arxasına keçirlər, valideyn övladı qarşısında lazımi məsuliyyət daşımır, düşünmür ki, övladı böyüdükdən sonra hansı cinayəti törədə bilər, cəmiyyətdə hansı xoşagəlməz addımlar ata bilər və s. Bütün bunlar ona gətirib çıxarır ki, həmin gənclər 20-25 yaşlarından qanunları pozmağa, qudurğan hərəkətlər etməyə başlayır. Bu da yolverilən deyil. Ona görə də bu cür yanaşma da doğrudur ki, əgər yüksək vəzifəli məmur öz övladını, ailəsini idarə edə bilmirsə, onda ona tapşırılan işə, yüzlərlə insanın taleyi ilə necə məşğul ola bilər? Bu məntiq doğru və düzgündür".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT

Son səhifə

N 216 (6537) 1 oktyabr 2016



## Doğulandan 32 saat sonra hovuza "atdılar"

İngiltərədə dünyaya gələn Phoenix Elvel dünyaya gələndən 32 saat sonra atasıyla birlikdə uşaqlar üçün təşkil edilən üzgüçülük dərslərinə qatılıb. Bu, artıq dünyada çox geniş yayılmış haldır. Valideynlər uşaqların suya öyrəşməsi, üzmə dərsi alması üçün çox uzun vaxt gözləmirlər. Bu, onların su ilə təmasını tezləşdirir, eyni zamanda orqanizmini möhkəmləndirir. Amma pediatrlar məsləhət görür ki, bu addımı atmazdan əvvəl uşaqlar ciddi müayinədən keçirilsinlər. Əks halda, bu, fəsadlarla nəticələnə bilər.

## Kişi plastik əməliyyat etdirən arvadından təzminat tələb edir

Çində Jien Feng gözəlliyinə vurularaq ailə həyatı qurduğu qadının əslində estetik əməliyyat gözəli olduğunu öyrənib. Belə ki, Jien bunu dünyaya gələn qız övladının çirkin olması zamanı müəyyən edib. Türkiyə saytlarının xəbərinə görə, həqiqəti öyrənən Jian Feng onu aldatdığına görə həyat yoldaşına boşanma davası açıb. Bununla da kifayətlənməyən qəzəbli ər həyat yoldaşından 120 min dollar təzminat verməyi tələb edib. Müzakirə obyektinə çevrilən qeyri-adi boşanma davası isə fərqli yanaşmalara səbəb olub. Bir çoxları qadını haqsız sayarkən, qadın hüquqları müdafiəçiləri estetik əməliyyatın qadının azad iradəsinə bağlı olduğunu vurğulayaraq əri günahlandırıblar: "Sadəcə, gözəlliyinə görə qadınla evlənən kişinin ruhu çirkindir".

# Göy rəng yuxusuzluq, yaşıl isə yuxu gətirir

Britaniyanın Oksford Universitetinin bir qrup tədqiqatçısı müxtəlif rənglərin yuxu prosesinə təsirini öyrənməyə çalışıb.

Eksperiment zamanı laboratoriya siçanlarını işıq mənbələri müxtəlif olan qəfəslərə salıblar. Heyvanlar yaşıl işıqda rahat yuxuya gediblər, göy rəng isə əksinə, siçanları qıcıqlandırıb, onları daha da fəallaşdırıb.

Alimlər hesab edirlər ki, nəticə çıxarmaq və bunu insana şamil etmək hələ tezdir. Çox ehtimal ki, bu rənglər insanlara əks təsir göstərir. Axı biz gecələr, gəmiricilər isə gündüzlər yatmağa öyrəşib.



# İspan elə vəsiyyət yazdı ki, uşaqları şoka düşdü

Uşaqlarının vəfasızlığı ucbatından onları mirasından məhrum edən ispan bir ata ölüncə məzar daşına "Atanızı aldınız" mesajı yazdırıb. İspaniyanın Avila şəhərində uşaqlarının vəfasızlığını bütün dünyaya çatdırıb. Belə ki, o, özünə barmaq işarəsi formasında olan məzar daşı hazırlatdırıb. Ölən ispan başdaşına "Kimi çiçəklər gətirərək, kimi də dualar edərək məni ziyarət edəcəksiz. Amma səfərinizin sonu burda bitəcək. Sizi öz yanımda gözləyirəm" sözlərini yazdırıb. Bu da onun ailə üzvlərindən və qohumlarından çox yanıqlı olduğunu göstərib. Amma bu başdaşından xəbər tutanlar bir-bir qəbiristanlığa axın etməyə başladığı üçün yerli bələdiyyə məsələni nəzarətə götürüb və axının qarşısını alıb. Bundan başqa, üç barmağın konfiqurasiyasından ibarət baş daşı bir çoxlarının narazılığına səbəb olsa da, qəbiristanlıq rəhbərliyi onu dəyişdirə bilməyəcəyini açıqlayıb: "Bu, onun ölümündən öncə son vəsiyyəti idi və yerinə yetirilməli idi".





## Xərçəng olduğunu facebookdan öyrəndi

Uzun müddətdir başağrısından və başgicəllənməsindən şikayət edən 36 yaşlı Tom beyinində şiş olduğunu facebookdan öyrənib. Türkiyənin "Milliyet" qəzetinin xəbərinə görə, həkimlər Toma bildiriblər ki, bu şiş infeksiyanın nəticəsidir və ona resept yazıblar. Müalicənin effektinin olmadığını görən kişi beynində şiş olmasını dostunun facebookda paylaşmasından sonra öyrənib. Belə ki, onun dostluğunda olan şəxslərdən biri öz qızının beynində bədxassəli şiş olduğunu və bu xəstəliklə bağlı resepti paylaşıb. Bundan sonra Tom xərçəng olduğunu anlayıb.

Bundan narahat olaraq, yenidən müayinəyə gedib. 6sm bədxassəli şiş olduğu müəyyən edilib. Hazırda Tom müalicə olunur.



QOÇ - İşlə bağlı yeniliklər yolunuzu gözləyir. Bu istiqamətdə sizə dəstək verənlər də tapılacaq. Günün ikinci yarısında birgə fəaliyyət planları haqqında bir daha götür-qoy etməyə dəyər.

BUĞA - Bu gün istənilən məsələdə risk etmək sizə zərər verə bilər. Odur ki, hansısa addımı atmazdan qabaq yüz ölçüb bir biçin. Müştərək fəaliyyətə başlamaq üçün saat 16-19 arasından yararlanın.

ƏKİZLƏR - Əsas diqqəti fəaliyyətə yönəldin. Bəzi üzdəniraq dostlarınızla sonrakı münasibətləri konkretləşdirin. Xəyanəti bağışlamadığınız kimi, özünüz də etməyin. Uzaq yola çıxmayın.

XƏRÇƏNG - Nə qədər sadə görünsəniz, ulduzların yanında hörmətiniz də bir o qədər çox olar. Sizə ehtiyac duyanlara kömək göstərin. Saat 16-dan sonra riskli işlərə aludə olmayın.

ŞİR - Ən başlıcası özünüzü mübahisədən qorumaqdır. Bunu bacarsanız, narahatçılığınız olmayacaq. İşgüzar sövdələşmələrdə iştirak etmək, problemləri birgə həll etmək üçün uğurlu məqamdır.

QIZ - Havalar nə qədər dəyişkən olsa da, fəaliyyətinizə ara verməyin. Çünki bütün astroloji qaynaqlar bu təqvimdə uğurlu karyeraya yetişmək şansınızdan xəbər verir. Təşəbbüskarlığı əldən verməyin.

TƏRƏZİ - İxtiyarınızda olan bu təqvimi sakit tərzdə başa vurmağa çalışın. Özünüzü gərginliyə sürükləməyin. Nəzərə alın ki, gün ərzində mənfi enerjili Ay bürcünüzdə qərar tutacaq.

ƏQRƏB - Bütün vacib işlərinizi saat 16-ya qədər yekunlaşdırın. Əgər bu proses sonrakı müddətə qədər uzansa, münaqişəli situasiyalara cəlb oluna bilərsiniz. Qazanmaq ehtimalınız böyükdür.

OXATAN - Çoxları üçün təlatümlərlə dolu olan bu təqvim sizin üçün daha çox maddi cəhətdən uğurlu keçməlidir. Gözləmədiyiniz istiqamətlərdən yeni iş təklifləri də ala bilərsiniz.

OĞLAQ - Planetlərin bürcünüzdəki neqativ düzümü səhhətlə bağlı müəyyən problemlərə yol aça bilər. Odur ki, istirahətə daha böyük yer ayırın. Bu gün riskli pul sövdələşmələrindən uzaq olun.

SUTÖKƏN - Ailə-sevgi münasibətlərində vəziyyət qənaətbəxş olsa da, həmkarlarınızla aranızda soyuqluq yarana bilər. Bu amili nəzərə alıb verdiyiniz hər sözə əməl etməyə çalışın. Kimisə aldatmayın.

BALIQLAR - Gərgin məqamlarla dolu olan bu təqvimi səbrlə başa vurmağa çalışın. Bütün vacib işləri təxirə salın. Axşam saatlarında isə yalnız sağlamlığınızla məşğul olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Maaşının əvəzinə "ölü maşını"nı oğurladı




Başqırdıstana yas bürosunun əməkdaşı işdən çıxarılmasına qəribə üsulla etiraz edib. O, büronun "ölü maşını"nı qaçırıb. Bürodan maşının itkin düşməsi ilə bağlı polisə məlumat veriblər. Bir neçə saat sonra isə şübhəli şəxs qismində 27 yaşlı keçmiş işçi saxlanıb. O bildirib ki, müəssisədə 3 ay boyunca işləyib və sonra heç bir səbəb göstərilmədən çıxarılıb. İşdən çıxarılandan sonra isə ona elə gəlib ki, haqq etdiyi məvacibini ala bilməyib. Buna görə də işin meyit daşıyan maşınını qaçırıb. Polisə ifadəsində o, bu hərəkətində haqlı olduğunu deyib və ona dəyən ziyanın ödənməsini tələb edib. Polisdə isə ona qarşı cinayət maddəsi ilə iş açılıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750